www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 sentyabr 2015-ci il Cümə axşamı № 194 (6222) Qiymәti 40 qәpik

**Xəbər**

## MTN İŞİD-lə əlaqələri olan 5 nəfəri həbs etdi

yazısı səh.14-də

**Gündəm**

### Bakı-Vaşinqton münasibətləri üçün daha bir kritik test



ABŞ Azərbaycana təzyiqin başladığını rəsmən elan etdi; Dövlət Departamenti Xədicə İsmayıl və Leyla Yunusun azadlığı üçün kampaniyaya start verdi; "Hökumətinizə təzyiqləri gücləndirəcəyik..."

yazısı səh.9-da

### Razi Nurullayevin tərəfdarlarının konfrans keçirməsinə imkan verilmədi

yazısı səh.3-də

### Hakimiyyətlə ATƏT arasında gərginlik

yazısı səh.9-da

### Tovuz və Qazaxda gərgin döyüşlər - düşmən ağır itkilər verdi

yazısı səh.8-də

### Baş nazirin "istefası" xəbərinə rəsmi reaksiya

yazısı səh.7-də

*Azər Mehtiyev:*

### "Yaşayış yeri haqqında arayış ləğv edilməlidir"

yazısı səh.11-də

### QAT-dan erməni futbolçu ilə bağlı sərt xəbərdarlıq

yazısı səh.13-də

### Xalça Muzeyinin direktor müavinindən ilginc açıqlamalar

yazısı səh.11-də

### Daha bir kredit fırıldağı: məktəb direktoru saxlandı

yazısı səh.2-də

### Bakıda kirayə evlər bahalaşıb

yazısı səh.13-də

### "Avtovağzal" metro stansiyası nə vaxt istifadəyə veriləcək...

yazısı səh.13-də

### BDU tələbələrinin ən böyük dərdi- yataqxana...

yazısı səh.9-da

## Beynəlxalq Bankın keçmiş rəhbəri haqda müdhiş xəbərlər

# CAHANGİR HACIYEVLƏ RAMİZ RZAYEVİN OFŞOR ORTAQLIĞI - ŞOK İDDİA

Beynəlxalq Bankın əsas maxinasiyalarının həyata keçirildiyi Lüksenburq filialının müdiri Ali Məhkəmənin sədrinin oğludur; Moskva filialında da çirkli pulların yuyulduğu haqda ciddi xəbərlər var; ABB-nin batacağı haqda 4-5 il öncə nələr yazmışdıq?




yazısı səh.5-də

## Bakıda icra başçısı "inqilabı" - qalaqurma!

Zakir Fərəcov Sumqayıtın başçısı təyin olundu; kabinetini tərk etməyəcəyini deyən Eldar Əzizov Səbayelə göndərildi, Asif Əsgərov Nəsiminin icra başçısı oldu; Nəsib Məhəməliyev güdaza getdi; Abşeronun icra başçısı vəzifəsini xanım icra edəcək...

yazısı səh.11-də



*Əli Həsənov:*

### "Məhkəmənin Xədicə İsmayılova ilə bağlı qərarını siyasiləşdirmək cəhdləri yolverilməzdir"

yazısı səh.3-də



### Seçkidə YAP-da pul işinə Siyavuş Novruzov nəzarət edəcək

yazısı səh.4-də



*Qulu Məhərrəmli:*

### "Məhəmməd Əminin daşı ağırdır..."

yazısı səh.10-da

**3 sentyabr 2015**



## Azay Quliyev Şirvanda tələbə adını qazananları təbrik etdi

**31 avqust 2015-ci il tarixində millət vəkili Azay Quliyev Şirvanda bu il ali məktəblərə yüksək balla qəbul olunmuş məzunlara həsr olunan tədbirdə onları təbrik edib.**

Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalovun təşəbbüsü ilə keçirilən məzun törənində millət vəkili qeyd edib ki, Şirvan şəhərindən 36 məzunun 500-dən və 34 məzunun isə 600-dən çox bal toplayaraq Respublikanın aparıcı universitetlərinə qəbul olunması çox sevindirici haldır və bu uğurlar cənab Prezident İlham Əliyevin təhsil sahəsində apardığı məqsədyönlü siyasətin nəticəsidir. Azay Quliyev həmçinin başda məzunlar olmaqla əldə edilmiş uğurlarda payı olan hər kəsi- müəllimləri, məktəb direktorlarını, valideynləri təbrik edib və onlara belə yüksək nəticələr göstərdiklərinə görə təşəkkür edib. Bundan başqa Azay Quliyev 600-dən çox bal toplamış 34 məzuna hədiyyələr verib və onlara universitet illərində müvəffəqiyyətlər arzulayıb. Həmçinin millət vəkili 2014-2015-ci təhsil ilində əldə etdikləri nailiyyətlərə görə 16 nömrəli məktəbin direktoru Çingiz Şirəliyevə və 18 saylı məktəbin direktoru İsmayıl Yusubova təşəkkürnamə və hədiyyələr təqdim edib.

Daha sonra Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov 500-dən çox bal toplamış 36 məzuna hədiyyələr təqdim edib və onları təbrik edib.

**Tədbir tanınmış müğənnilərin iştirak etdiyi konsert proqramı ilə davam edib.**

## Havanın keyfiyyətini müəyyən edən yeni cihaz yaradılıb

**Hər il dünyada təqribən yeddi min adam havanın çirklənməsi səbəbindən vaxtsız ölür. Onların yarısı isə binadan kənarda havanın keyfiyyətsizliyi üzündən ölür.**

Dünya Səhiyyə Təşkilatının (DST) məlumatına görə, binadan kənarda çirkli havanın səbəb olduğu ölüm hallarının 88 faizi aşağı və orta gəlirli ölkələrin payına düşür. Məhz inkişaf etməkdə olan ölkələrin əhalisinin havanın keyfiyyəti barədə məlumat almaq imkanı yoxdur. BMT-nin Ətraf Mühit Proqramı (UNEP) vəziyyəti dəyişmək niyyətini açıqlayıb. Qurum havanın keyfiyyətini müəyyən etmək üçün qiyməti münasib olan cihazın yaradılması barədə məlumat yayıb.

Yeni cihazın sınaqdan keçirilməsi üzrə təcrübi layihə avqustun 31-də Nayrobidə işə salınıb. Yeni cihazın qiyməti 1,5 min ABŞ dolları civarındadır ki, bu da hazırda mövcud olan belə cihazların qiymətindən təxminən 100 dəfə ucuzdur.

Qiymətin çox ucuz olması sayəsində müxtəlif ölkələrdə havanın monitorinqi üçün cəmi 150-200 min dollara ümummilli stasionar və mobil stansiya şəbəkələri yaratmaq mümkün olacaq. Hazırda isə bu məbləğə yalnız bir stansiya tikmək olar. UNEP-in başçısı Ahim Ştayner deyib:"UNEP-in cihazı havanın keyfiyyəti barədə məlumat səviyyəsini kəskin artırmağa, havanın çirklənməsinin mənfi təsirini azaltmağa kömək edə bilər. Bu da çirklənmə ilə bağlı xəstəliklər təhlükəsinə məruz qalan insanların həyatını xilas etməyə şərait yaradacaq".

## Hərbi Liseyin kursantı kanalda boğulub

**Bərdə rayonunda, Yuxarı Qarabağ kanalında batan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Vüsal Qara oğlu Cəfərovun meyiti tapılıb. "Report"un məlumatına görə, Fövqəladə Hallar Nazirliyinin (FHN) xilasedicilərinin iki gündür axtardığı 16 yaşlı yeniyetmənin cəsədi Yuxarı Qarabağ kanalının Ağcabədi rayonunun Xocavənd kəndi ərazisindən keçən hissəsində su qapısına ilişərək üzə çıxıb.**

Qeyd edək ki, hadisə iki gün əvvəl Bərdə rayonu, Mehdili kəndinin ərazisində baş verib. Belə ki, V.Cəfərov Yuxarı Qarabağ kanalının yaxınlığında qoyun otaran zaman kanalın üstündəki dəmir borunun üstü ilə digər tərəfə keçərkən ayağa sürüşərək suya düşüb.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Prezident hərbi xidmətə çağırışla bağlı sərəncam verdi

**Prezident İlham Əliyev hərbi xidmətə çağırışla bağlı sərəncam verib. Sərəncamda deyilir:**

- Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:



**1.** 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət qulluqçuları 2015-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

## Fazil Mustafa: "Satqın dedikdə Əli Kərimli yada düşür"

**"Yaxşı olardı ki, Əli Kərimlinin "satılmaması" barədə danışanlar 1995-ci il və sonrakı tarixə bir də nəzər salsınlar. Onda yadlarına düşər ki, Əli Kərimli hakimiyyətlə hansı danışıqlara gedib".**

Bu fikirləri Böyük Quruluş Partiyasının (BQP) başqanı, millət vəkili Fazil Mustafa "Milli Şura"nın koordinasiya şurasının üzvü Gültəkin Hacıbəylinin mətbuata verdiyi müsahibəsində Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimlinin heç vaxt satılmaması barədə irəli sürdüyü iddialarına münasibətini bildirərkən deyib.

BQP başqanı eyni zamanda bildirib ki, ümumiyyətlə, onun (Əli Kərimlinin) Əbülfəz Elçibəyə qarşı apardığı mübarizənin arxasında hansı xəyanətlərin və satqınçılığın dayandığını, eləcə də Kərimlinin yanındakıların da kimlər olduğunu xatırlayanlar yaxşı bilirlər: "Ona görə də kimlərinsə tərəfindən tarixin bu dərəcədə təhrif olunması heç də ciddi qəbul edilmir. Azərbaycan Xalq Cəbhəsində satqınçılığın əsasını Əli Kərimli və bu gün onun yanında olan adamlar qoyub. Bu səbəbdən də Xalq Cəbhəsi dağılmağa məhkum oldu".

**Fazil Mustafa AXCP sədri barədə bu cür iddia ilə çıxış edən Gültəkin Hacıbəylinin Cəbhə haqqında danışmağa mənəvi haqqının olmadığını da vurğulayıb və bildirib ki, əslində Azərbaycanda satqın dedikdə, birinci olaraq, Əli Kərimli yada düşür:** "Onu da qeyd edim ki, bu gün Əli Kərimlinin "satılmamasını" iddia edən tərəflərin bu cür danışmağa mənəvi haqları yoxdur. Çünki xəyanət, satqınçılıq dedikdə ilk olaraq, təsəvvürlərdə məhz Əli Kərimlinin obrazı canlanır".



İradə Gülməmmədova

## Abşeronun xanım başçısı: "Prezidentin etimadını doğruldacağam"

**"Mənə etimad göstərib bu vəzifəyə təyin etdiyi üçün ölkə başçısı cənab İlham Əliyevə təşəkkür edirəm". Bunu APA-ya açıqlamasında bu gün Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı təyin edilən İradə Gülməmmədova bildirib. O, qeyd edib ki, bu məsuliyyətli vəzifəyə təyin edilməsi ölkə başçısının qadınlara verdiyi diqqət və qayğının təcəssümüdür: "Ölkə başçısı bu məsuliyyətli vəzifəyə məni təyin etdiyi üçün bütün qadınlar adından ona təşəkkürümü bildirirəm. Çalışacağam ki, prezidentimizin mənə göstərmiş olduğu etimadı bacarığımla, var-qüvvəmlə doğruldum".**

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyevin bu gün imzaladığı sərəncamı ilə İradə Gülməmmədova Abşeron Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. O buna qədər Abşeron Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini vəzifəsində çalışıb. O, həmçinin Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının üzvüdür.

## Daha bir kredit fırıldağı: məktəb direktoru saxlandı

**Sabirabad şəhərindəki Sabir adına 1 saylı orta məktəbin direktoru Diləfruz Mustafayeva bu gün hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Bu barədə virtualaz.org saytına Sabirabad rayonundakı mənbələrdən məlumat verilib.**

Xəbərdə deyilir ki, D.Mustafayevaya qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda törədildikdə) maddəsi ilə cinayət işi qaldırılıb.

Rayon sakinlərinin bildirdiyinə görə, məktəb direktoru banklardan Sabirabad sakinləri olan ayrı-ayrı vətəndaşların, əsasən isə rayon məktəblərinin müəllimlərinin adına külli miqdarda kredit götürüb. Amma son vaxtlar bu pulu ödəyə bilmədiyindən banklar kredit borcunu müəllimlərin əmək haqqından tuturmuş. Hətta adına kredit götürülmüş Minarə adlı müəllimə əsəb sarsıntısından bir neçə gün əvvəl dünyasını dəyişib.

İddialara görə, müdhiş kredit qalmaqalında keçmiş məktəb direktoru ilə yanaşı başqa vəzifəli şəxslərin də adı keçir.

Mənbə onu da bildirib ki, Diləfruz Mustafayeva haqqında cinayət işi başlandığı üçün o, bir neçə gün əvvəl məktəb direktoru vəzifəsindən azad olunub.

**Virtualaz.org saytı bu qalmaqallı işin təfərrüatlarını öyrənməyə çalışır.**

## Mingəçevirdə ölən gəncin atası: "Deyirlər narahat olmayın"

**Mingəçevir hadisələri ilə bağlı istintaq davam edir. Polis şöbəsində ölən Bəhruz Hacıyevin ailəsinə hələ ki, yeni bir məlumat verilməyib.**

Bu barədə məlumatı musavat.com-a mərhum B.Hacıyevin atası Dilsuz Hacıyev verib.

**D.Hacıyev sentyabrın 1-də müstəntiq Qurban Səfərovla görüşdüyünü dedi**: "Deyirlər ki, istintaq gedir, narahat olmayın. Sizin işinizə haqq-ədalətlə baxılacaq. Hələ ki, ekspertlərin rəyi yoxdur. Buna görə də əlavə məlumat verə bilmərik".

Mingəçevirdə şəhərdə və kəndlərdə sakitçiliyin olduğunu deyən D.Hacıyev kənd sakinlərinindən təxminən 8 nəfərinin həbsdə olduğunu dedi.

Xatırladaq ki, Mingəçevir şəhər sakini Bəhruz Hacıyev avqustun 20-də polis şöbəsinə gətirildikdən 10 dəqiqə sonra ölmüşdü. Rəsmi məlumatda onun özünü pəncərədən atdığı deyilir. Lakin mərhumun yaxınları B.Hacıyevin öldürüldüyünü iddia edirlər.

Avqustun 22-də B.Hacıyevin dəfnindən sonra bir qrup şəxs şəhər meydanında etiraz aksiyası keçirmişdi və polislə qarşıdurma yaranmışdı. Nəticədə xeyli sayda aksiya iştirakçısı həbs edilmişdi. 10 polis əməkdaşı xəsarət almışdı. Rəsmi məlumatlarda həbs edilənlərin sayı 21 nəfər göstərilirdi. Aksiyadan sonra Mingəçevir kəndində aksiyada fəal iştirak edənlərin də sonradan həbsinə başlanılmışdı. Yerli sakinlər bunu təsdiq etsə də bu haqda rəsmi məlumat verilmir.

**B.Hacıyevin ölümündə günahlandırılan polis baş leytenantı Şahlar Şahlarzadə isə artıq həbs edilib. Mingəçevir Şəhər Polis Şöbəsinin rəisi Ələsgər Bədəlova isə şiddətli töhmət elan olunub.**

İlkin MURADOV

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Xədicə İsmayılın həbsinə xarici təşkilatlar sərt reaksiya verdilər

## Natiq Miri: "Ölkədə heç nə dəyişmədikcə, Xədicələrin sayı getdikcə artacaq"

**Məlum olduğu kimi, araşdırmaçı jurnalist Xədicə İsmayılın məhkəməsi sentyabrın 1-də başa çatdı. Məhkəmənin qərarına əsasən, o, 7 il yarım müddətində azadlıqdan məhrum edildi. Jurnalistə oxunan hökmün ardından Avropanın nüfuzlu təşkilatları bəyanatlarında buna öz kəskin reaksiyalarını verdilər.**

ABŞ Dövlət Departamentinin bəyanatında deyilir: "Biz istintaq və məhkəmə zamanı pozuntularla bağlı məlumatlardan narahatıq.

Bu, Azərbaycanda insan hüquqlarının, o cümlədən mətbuat azadlığının məhdudlaşdırılması ilə bağlı geniş tendensiyaya daha bir nümunədir. Biz Azərbaycan hakimiyyətini X.İsmayılovanı və əsas azadlıqların həyata keçirilməsinə görə, həbs olunan digər şəxsləri azad etməyə çağırırıq. Həmçinin Azərbaycan hökumətini əsas insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqi üzrə beynəlxalq öhdəliklərə sadiq olmağa çağırırıq".

ATƏT Parlament Assambleyası İnsan Hüquqları və Demokratiya Komitəsinin rəhbəri İsabel Santos jurnalist Xədicə İsmayılovaya oxunan hökmə münasibət bildirib: "Məlumdur ki, bu, siyasi motivli qərardır, öz ölkə rəhbərliyindən hesabat tələb etmək cəhdinə cavabdır. Hər dəfə belə hadisə baş verəndə, jurnalist və ya vətəndaş fəalı təqib və ya həbs ediləndə, Azərbaycan ATƏT-in demokratik dəyərlərindən və öz öhdəliklərindən uzaqlaşmış olur. Hakimiyyəti bu avtoritar praktikanı ləğv etməyə və X.İsmayılova ilə yanaşı, digər hüquq müdafiəçilərini, jurnalistləri və vətəndaş fəallarını azad etməyə çağırıram".



**Digər Avropa təşkilatlarının da bəyanatları var. Demək olar ki, nüfuzlu hüquq təşkilatlarının əksəriyyəti X.İsmayıla verilmiş hökmü pislədilər.**

Hazırda Azərbaycan həbsxanalarında kifayət qədər adlarını çəkə biləcəyimiz siyasi məhbus olan jurnalistlər var. Tofiq Yaqublu, Seymur Həzi, Hilal Məmmədov, Pərviz Həşimli və son olaraq da, Xədicə İsmayıl bu siyahıdadır.

X.İsmayıla verilən ağır cəza ilə onun jurnalistik fəaliyyətindən çox qadın olması önə çəkildi. Bir ay ərzində Leyla Yunusun ardınca ikinci qadındır, Azərbaycan məhkəmələri tərəfindən sərt cəza alan...

**Politoloq Natiq Miri** cinsiyyət məsələsinin Qərb dünyası üçün önəmli olmadığını hesab edir: " Müsəlman dünyası üçün də bu məsələ xüsusi önəm daşımamalıdır. Hesab edirəm ki, bütün məsələlər şəxsiyyətlər üzərindən qurulmalıdır. Bu baxımdan hüquq qarşısında kişi və qadın eyni məsuliyyət daşıyır. Ona görə də, Xədicə İsmayılın qadın olduğu üçün hakimiyyətin ciddi təzyiqlərə məruz qalacağını düşünmürəm. Amma jurnalistik fəaliyyətinə görə, müəyyən bəyanatlar səsləndirilir. Bundan irəli heç nə görmürük. Xarici təşkilatların bəyanatları hakimiyyət üçün heç bir əhəmiyyət daşımır. Sadəcə olaraq, qulaqardına verilir. Bu bəyanatların sayı sadəcə artmaqla müşahidə olunur. Təzyiqlərə qarşı da hakimiyyət susqun görünür. Bu gün Amerika ilə danışıqlarda da Xədicə İsmayılın fonunda siyasi məhbusların azadlığa buraxılmaları müzakirə obyekti deyil. Qərb strukturları boyunlarına düşən missiyanı yerinə yetirirlər. Ciddi mənada hakimiyyətlə məhbus probleminin həll olunması üçün danışıqlar aparılmır. Əgər belə danışıqlar olsaydı, müəyyən informasiyalar ortada olardı. Bu olmadığı üçün demək danışıqlar getmir. Hakimiyyətin təzyiqlərə reaksiya verməməsi ilə bağlı deyil. Bu insanlar unudulub, taleyin hökmünə buraxılıblar. Qərbdən hələ də "Ağ atlı oğlan"nın gəlməsini gözləmək cəmiyyət və demokratik düşərgə üçün ən yanlış seçimdir. Çünki, toplumun özü dəyişikliyə rəvac verməlidir. Toplum dəyişmədikcə, mənə elə gəlir ki, ölkədə bu yöndə heç bir dəyişiklik olmayacaq. İndiki situasiya hakimiyyətin tam nəzarəti altındadır. Vəziyyətlə hakimiyyət də tamamilə razıdır. Müəyyən problemlər ola bilər. Hüququ mənada əhalinin bu şəkildə idarə olunması hakimiyyət üçün tam sərfəlidir. Əziyyət çəkən sadəcə cəmiyyətdir. Ölkədə heç nə dəyişmədikcə, Xədicələrin sayı getdikcə artacaq".

❑ **Cavanşir ABBASLI**

# Razi Nurullayevin tərəfdarlarının konfrans keçirməsinə imkan verilmədi

## Narazı cəbhəçilərin Ağstafada toplantı keçirməsinin qarşısı alınıb

**Əli Kərimliyə qarşı çıxaraq, Razi Nurullayevi dəstəkləyən cəbhəçilərin Ağstafada konfrans keçirməsinə əngəl törədilib. Konfrans keçirmək istəyən sabiq cəbhəçilərlə polislər arasında qarşıdurma yaranıb.**

Bu barədə sosial şəbəkədə **AXCP Etimad Qurultayının Təşkilat Komitəsinin rəhbəri Razi Nurullayev** məlumat verib: " Bir neçə gün hazırlıq edib Ağstafada konfrans keçirmək istədik. İstədik ki, hər şey mədəni, kübar və səliqəli olsun. Qoy cəbhəçilər döyülməsin, söyülməsin və aşağılanmasın. Amma 80-100 nəfərlik cəbhəçilərin üzərinə Ağstafa polisi 4 avtobus silahlanmış polislə gəldi. Onları cəbhəçiləri kobudluqla avtobuslara doldurub, polis idarəsinə salıb damladılar. Şükür ki, hamısı azad edilib artıq. Amma onların ürəyinə düşən xiffət və qorxu qalacaq. İnsan şəxsiyyətini aşağılamaq, insanı təhqir demək, onu əzmək çox böyük ədalətsizlik və qanunsuzluq olmaqla bərabər, həm də böyük günahdır".



**R.Nurullayev qeyd edib ki, hər bir insan azad doğulub və hər bir insanın şəxsiyyətinə hörmət olunmalıdır**: "Ağstafa polisinin, Ağstafa İcra Hakimiyyətinin bu hərəkəti heç bir ölçüyə sığmır. Məsələ döyülməkdə və söyülməkdə deyil. İnsan şəxsiyyətini alçaltmaq, ona əl qaldırmaqdan daha betərdir. Biz AXCP olaraq, yeni yol və format müəyyən edirik. Yenilənmiş və intriqalardan uzaq, xalqın maraqları ilə uyuşan bir AXCP qururuq. Əbülfəz Elçibəy sevgisi ilə qurulan bir AXCP. Dinc mübarizə üsulu ilə sizi daha çox utandırmağa çalışacağıq. Bizim topumuz və topxanamız olmasa da, insan və insanlığa, dövlət və dövlətçiliyə ehtiramımız və sayqımız var. Dövlət YAP demək deyil. Dövlət bizim babalarımızın ruhunun gücü və dəstəyi ilə bizə çatmış, kökü tükənib-bitməyən, sonsuzluğa qədər gedən bir qayadır. O qayanı tərpətmək olmaz".

**R. Nurullayev hakimiyyəti bu davranışlara son qoymağa çağırıb:** "Biz dözürük və dözəcəyik. Öz dözümlülük və səbrimizlə sizi utandıracaq və sonunda da qalib biz olacayıq. Biz şəxsimizlə yox, dövlət sevgimiz və dövlətçilik marağımızla sizə qalib gələcəyik. Qoy Ağstafa icra hakimiyyəti və onlara göstəriş verən yuxarı çinli vəzifəlilər düşünsün və doğruları ayrıd etsin".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun AZƏRTAC-a açıqlaması

## Əli Həsənov: "Məhkəmənin Xədicə İsmayılova ilə bağlı qərarını siyasiləşdirmək cəhdləri yolverilməzdir"



**"Azadlıq" radiosunun əməkdaşı Xədicə İsmayılova jurnalist fəaliyyəti ilə bağlı olmayan konkret cinayət əməlləri törətməkdə ittiham olunub, məhkəmə prosesi zamanı onun günahı tam sübuta yetirilib və müvafiq qərar çıxarılıb. Buna görə də bəzi beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin rəsmi nümayəndələrinin, həmçinin bir sıra beynəlxalq hüquq müdafiə təşkilatlarının məhkəmənin X.İsmayılova ilə bağlı qərarını siyasiləşdirmək cəhdləri yolverilməzdir.**

Azərbaycan dövləti söz və məlumat azadlığını, kütləvi informasiya vasitələrinin müstəqilliyini daha da inkişaf etdirmək istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Bu gün ölkədə yüzlərlə KİV tam sərbəst şəkildə və təhlükəsiz şəraitdə fəaliyyət göstərir, jurnalistlər heç bir maneə olmadan öz vəzifə borcunu yerinə yetirirlər. İnkişaf etmiş Qərb ölkələrində olduğu kimi, Azərbaycanda da jurnalistlər peşə fəaliyyətinə görə məsuliyyətə cəlb olunmurlar. Bu səbəbdən bəzi xarici dairələrin Azərbaycandakı reallığı təhrif etmək, ayrı-ayrı halları əsassız şəkildə ümumiləşdirərək ölkənin demokratik imicinə xələl gətirmək cəhdlərini qəbuledilməz hesab edirik və onları bu yanaşmadan çəkinməyə çağırırıq.

# REAL seçkidə 17 namizədlə iştirak edəcək

## Hərəkat seçkiyə qatılmaq üçün üç əsas səbəb göstərib

**Respublikaçı Alternativ Hərəkatı (REAL) 1 noyabr parlament seçkiləri ilə bağlı namizədlərini müəyyənləşdirib. REAL seçkilərə 17 namizədlə qatılacaq. Hərəkatın icra katibi Natiq Cəfərli sentyabrın 2-də keçirilən mətbuat konfransında bu barədə bildirib. O qeyd edib ki, REAL-ın əsas məqsədi seçkilərdə iştirak etmək və bu fürsətdən istifadə edərək insanlarla təmas qurub ölkədəki problemləri cəmiyyətin diqqətinə çatdırmaqdır.**

REAL-ın seçkidə iştirak edəcək namizədləri bunlardır: Natiq Cəfərli, Erkin Qədirli, Xalid Bağırov, Azər Qasımlı, Zöhrab İsmayıl, Cəsur Məmmədov, Vəfa Rüstəm, Mübariz Rəhimli, Şadiman İsmayılov, Hafiz Babalı, Ramil Süleymanov, Kənan Məkanlı, Rafiq Muradov, Hacıbala Bayramov, Azay Vəlixanov, Əlayif Həsənov və Mikayıl Talıbov.

Həmçinin, REAL "D-18" Hərəkatının sədri Ruslan İzzətlinin 33 saylı Xətai Birinci Seçki Dairəsindən namizədliyini dəstəkləyəcək. REAL Hərəkatının hazırda həbsdə olan sədri İlqar Məmmədovun namizədliyi isə irəli sürülməyib.

Hərəkatın mətbuat üçün açıqlamasında isə bildirilib ki, hərəkat bir çox səbəblərdən parlament seçkilərində iştirak barədə qərar verib. Hərəkat üç əsas səbəb göstərib: sistemin çöküşə doğru getməsi, mədəni düşüş və nəsil borcu.

Həmçinin, bildirilir ki, ölkəmizdə son illər ərzində getmiş proseslər, baş vermiş hadisələrnəticəsində siyasi mövzuların açılması, müzakirələrin aparılması, qərarların qəbulu və icrası, eləcə də etirazların ifadəsi sahəsində ciddi mədəni düşüş var: "İctimai ünsiyyət fürsətlərinin təsirli dərəcədə qapadıldığı şəraitdə təhsil, elm, incəsənət kimi sahələr bir yana, siyasi səhnədə mədəni örnəklərin azlığı təhlükəli hal alıb. 'Hüququn üstünlüyü' prinsipinin işləmədiyi şəraitdə siyasi mədəniyyətin formalaşması üçün, siyasi oyunçuların müzakirə səviyyəsini öz təşəbbüslərilə yüksəltmək borcu var. Bunun üçün siyasi hədəflər aydın göstərilməli, təməl əsaslandırma verilməli, "qırmızı cizgilər" çəkilməlidir. REAL Hərəkatı bu seçkilərə həm də bunun örnəyini göstərmək üçün gedir".

**Açıqlamada qeyd edilir ki, ölkədə gedən ən müsbət və qarşısıalınmaz proses- nəsil dəyişimidir:** "70-ci və 80-ci illərdə doğulmuş nəsil yavaş-yavaş dominant olmağa başlayır və bu təbii prosesdir. Ölkədə siyasi dəyişikliyin təsisatlanmış formaları olmadığına görə, nəsil dəyişiminin siyasi önəmi üzə çıxır. REAL Hərəkatı siyasi səhnədə yeni nəsli təmsil etmək, onun maraq və qayğılarını ifadə etmək borcunu qürurla öz üzərinə götürür".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015



# Seçkidə YAP-da pul işinə Siyavuş Novruzov nəzarət edəcək

## Məzahir Pənahov partiyalara xəbərdarlıq etdi

**Dünən Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında sədr Məzahir Pənahov seçkiqabağı təşviqatla bağlı siyasi partiyalara xəbərdarlıq edib. MSK katibliyinin media və ictimai əlaqələr şöbəsindən verilən məlumata görə, M. Pənahov bildirib ki, Seçki Məcəlləsinə və Təqvim Planına əsasən seçkiqabağı təşviqatın aparılması oktyabrın 9-da başlanacaq, 31 oktyabr saat 8.00-da dayandırılacaq.**

M.Pənahov siyasi partiyaların Təqvim Planında göstərilən müddətdən əvvəl mətbuatda seçki ilə bağlı təşviqat aparmamalı olduğunu, bunun qanun pozuntusu sayıldığını qeyd edib. MSK sədri siyasi partiyaları bu həssas məsələdə ehtiyatlı olmağa, pozuntuya yol verməməyə çağırıb.

M.Pənahov onu da bildirib ki, indiyə qədər deputatlığa namizədliyin irəli sürülməsi ilə bağlı MSK-da 19 seçki dairəsi üzrə 25 müraciət qeydə alınıb.

MSK sədri bu il parlament seçkilərində deputatlığa namizədliyini irəli sürən şəxslərin və seçkilərdə iştirak edəcək partiyaların ötən seçkilərlə müqayisədə daha çox olacağını gözlədiklərini, mətbuatda bu yöndə açıqlamalardan, bəyanatlardan bu qənaətə gəldiklərini bildirib.

Ayrı-ayrı siyasi, ictimai təşkilatlar isə deputatlığa namizədlərini elan etməkdədirlər. Dünən REAL Hərəkatının bu il noyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərdə namizəd olacaq üzvlərinin siyahısı açıqlanıb. Seçkilərdə REAL dəstəklədiyi namizədlərlə birlikdə 23 namizəd irəli sürüləcək. Həmin namizədlərdən 17-si REAL-ın, digər 6-sı isə digər təşkilatların üzvləridir.

Belə ki, 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsindən REAL-ın icra katibi Natiq Cəfərəlinin, 16 saylı Yasamal ikinci seçki dairəsindən hərəkatın idarə heyətinin üzvü Erkin Qədirlinin, 23 saylı Nəsimi-Səbail Seçki Dairəsindən REAL-ın İdarə Heyətinin üzvü Azər Qasımlının namizədliyi irəli sürülüb.

Bundan əlavə, REAL "D-18" Hərəkatının sədri Ruslan İzzətlinin 33 saylı Xətai Birinci Seçki Dairəsindən namizədliyini dəstəkləyəcək.

Həbsdə olan REAL Hərəkatının sədri İlqar Məmmədovun deputatlığa namizədliyi irəli sürülməyib.

Hakim Yeni Azərbaycan Partiyası isə seçkilərdə səlahiyyətli nümayəndələrini müəyyənləşdirib. **Partiyanın icra katibinin müavini Siyavuş Novruzov** Milli Məclisə seçkilərdə YAP-ın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi olub. Bu, Mərkəzi Seçki Komissiyasının "2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında" qərarında əksini tapıb.

**Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sabiq sədri Qərib Məmmədov, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sabiq sədri Tağı Əhmədov, deputatlar Məlahət İbrahimqızı, Hüseynbala Mirələmov və Sədaqət Vəliyeva da daxil olmaqla 157 nəfər hakim partiyanın səlahiyyətli nümayəndələri təsdiq olunublar.**

8 partiyanın təmsil olunduğu "Azadlıq-2015 siyasi partiyalar bloku" isə təsis sənədlərini Mərkəzi Seçki Komissiyasına təqdim edib. Azərbaycan Respublikası Seçki Məcəlləsinə uyğun olaraq Aydınlar Partiyası, Azadlıq Partiyası, Azərbaycan Xalq Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Böyük Azərbaycan Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Vətəndaş və İnkişaf Partiyası tərəfindən "Azadlıq-2015 siyasi partiyalar bloku" təsis edilib. AR Seçki Məcəlləsinə uyğun olaraq seçki blokunun təsisi ilə bağlı sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilib.

**MSK-da isə siyasi partiyaların səlahiyyətli nümayəndələrinin təsdiqi davam edir. Dünən MSK-nın iclasında Ümid Partiyası, Demokratik İslahatlar Partiyası və Böyük Quruluş Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri qeydə alınıb.**

❑ **Etibar SEYİDAĞA**

# BTC əvəzinə BTQ?

## Hökumət Ələt limanı və Bakı-Tiflis-Qars dəmir yolu xətti layihələri ilə Azərbaycanı Orta Asiya və Çindən Avropaya əsas tranzit ölkəyə çevirmək istəyir

**Azərbaycan dövlətinin müəlliflik etdiyi ən iri layihələrdən biri də təbii ki, Bakı-Tiflis-Qars dəmir yolu xəttidir. Bu layihə işə salındıqdan sonra tarixi "İpək yolu"nun dəmir relslər üzərində bərpası baş tutmuş olacaq.**



Ancaq hazırda layihənin tikintisi gedir və belə görünür ki, işlər heç də sürətli aparılmır. Məsələ burasındadır ki, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişinə dair saziş 7 fevral 2007-ci ildə prezident İlham Əliyevin Gürcüstana işgüzar səfəri zamanı imzalanıb. Həmin vaxt mətbuatda Azərbaycan, Gürcüstan və Türkiyə yollarının birləşdirilməsi üçün əsas tikintinin Gürcüstan və Türkiyə ərazisində aparılacağı, ümumilikdə 70 kilometrdən bir qədər artıq yolun tikiləcəyi bildirilirdi. Hətta BTQ-nin 2010-cu ildə istismara veriləcəyi də proqnozlaşdırılırdı. Lakin artıq 8 il keçib və layihə hələ başa çatmayıb. Üstəlik, 2015-ci ilin sonuna başa çatdırılması planlaşdırılan xəttin daha iki il ləngiyə biləcəyi haqda məlumatlar dövriyyəyə buraxılıb.

İndi isə neft və qaz erasının başa çatması rəsmən elan olunub və təbii ki, Azərbaycan hakimiyyəti alternativ gəlir mənbələrinə üz tutmalıdır.

Azərbaycan üçün hazırda iki əsas alternativ gəlir mənbəyi düşünülür. Birincisi, sovetlər dönəmində böyük ənənəyə malik olan kənd təsərrüfatı sahəsidir. Hökumət yenidən aqrar sahəni dirçəltməklə ən azından daxili tələbatı qarşılamaq və mümkün qədər qonşu ölkələrə, xüsusən də Rusiya kimi tarixi tərəvəz eksportu ölkəsinə ixracı nəzərdə tutur. Ancaq hələlik bu istiqamətdə hökumətin hansısa ciddi bir addımı yoxdur.

İkinci mühüm istiqamət isə tranzit və daşımaçılıqdır. Məsələ burasındadır ki, Azərbaycanın coğrafi mövqeyi dünyanın mühüm nəqliyyat yollarının üzərinə düşür. Rusiya və İranı birləşdirən şimal-cənub xətti, eləcə də Çindən Avropaya qədər uzanan beynəlxalq "İpək yolu"nun üzərində yerləşməsi Azərbaycanın nəqliyyat və yük daşımalarında ixtisaslaşması və bu sahəni inkişaf etdirməsi üçün potensial yaranır.

Hazırda Bakını bu istiqamətdə daha çox həvəsləndirən İrana qarşı embarqoların qaldırılması ilə bu ölkəylə ticarətin artması ehtimalıdır. Çünki mütəxəssislərə görə, embarqoların götürülməsindən sonra İranın xarici ticarət dövriyyəsi bir neçə dəfə artacaq və bu prosesdə tranzit ölkə olaraq Azərbaycan və Türkiyənin də ciddi payı olacaq. Bu baxımdan Azərbaycanın nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, xüsusən də Çin və Orta Asiyadan yüklərin Avropaya daşınmasında yer alması mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev də bir neçə dəfə çıxışlarında Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsi ilə "qitələrin birləşəcəyi, 3 iştirakçı ölkənin tranzit ölkələrinə çevriləcəyini" bildirib. **Sitat**: "Bu dəmir yolu bundan sonra yüzilliklər ərzində bizim xalqlarımıza xidmət edəcək. Bu böyük geosiyasi, geoiqtisadi və əməkdaşlıq layihəsidir".

Ancaq bu günə qədər böyük pullar xərclənməsinə baxmayaraq layihənin tikintisi hələ də davam edir. Yeri gəlmişkən, qeyd edək ki, BTQ-nin tikiləcək əsas hissəsi Qars-Axalkalaki xəttidir ki, onun da uzunluğu 105 kilometrdir. Bu yolun 76 km-i Türkiyə ərazisinə düşür. Qalan hissə isə Gürcüstan ərazisindədir. Bu layihəni əsasən Azərbaycan hökuməti maliyyələşdirir. Layihənin Türkiyə ərazisinə düşən hissəsini Türkiyə hökuməti maliyyələşdirib.

Eyni zamanda layihənin tikintisi üçün Azərbaycan Gürcüstana 2011-ci ildə 775 milyon ABŞ dolları məbləğində vəsait kredit ayırıb. Mütəxəssislərə görə, Bakı-Tiflis-Qars dəmir yolu xəttinin illik yük buraxma qabiliyyəti 5 milyon tondur və gələcəkdə bu göstəricinin 10 milyona qədər artırılması nəzərdə tutulur. Rəsmi Bakı layihəyə yatırılan vəsaitin geri qayıdacağına inanır.

**Yeri gəlmişkən, BTQ xətti vasitəsi ilə sərnişin daşınması həyata keçiriləcək ki, bununla da Bakıdan İstanbula iki gün yarıma qatarla getmək mümkün olacaq. BTQ layihəsi ləngiməyinə və böyük xərc tələb etməyinə baxmayaraq bir sıra müşahidəçilər bu layihənin perspektivini yüksək qiymətləndirir. Ancaq təbii ki, bu layihənin uğurlu olması ilk növbədə Azərbaycanın Orta Asiya ölkələrini bu layihəyə cəlb etməsindən xeyli dərəcədə asılı olacaq. Ələt limanının işə düşməsi Orta Asiya və Çindən gələn quru yüklərin nisbətən qısa və təhlükəsiz yolla Avropaya çatmasını təmin edəcək əsas marşruta çevrilə bilər. Bunun nə qədər real olduğunu isə zaman göstərəcək.**

❑ **KƏNAN**

# DİN rəsmisi vətəndaşın iddiasının əsassız olduğunu deyir

## Orxan Mansurzadə: "Rüfət Ramazanovun şikayətçi olduğu şəxsin general Vaqif Axundovla qohum olması barədə səsləndirdiyi fikirlər tamamilə əsassızdır"

**"Yeni Müsavat" qəzetinin 02.09.2015-ci il tarixli sayında Xəzər rayonunun Binə qəsəbəsində yaşayan Rüfət Ramazanovun müraciəti əsasında hazırlanmış "General-polkovnikin qohumu vətəndaşı bankla üz-üzə qoyub" sərlövhəli yazı dərc edilib. Bununla bağlı Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə redaksiyamıza rəsmi mövqe yollayıb.**



Orxan Mansurzadə

O qeyd edir ki, yazıda Rüfət Ramazanovun şikayətçi olduğu Salyan şəhər sakini İbrahim Axundovun guya general Vaqif Axundov ilə qohum olması barədə səsləndirdiyi fikirlər tamamilə əsassızdır: "Qeyd edək ki, Rüfət Ramazanovun ərizəsi əsasında Nərimanov RPİ-də toplanmış material Bakı BPİ-nin İstintaq və Təhqiqat İdarəsində İbrahim Axundovun barəsində istintaq olunan cinayət işinə birləşdirilmişdir. Müəyyən edilmişdir ki, Orxan və Rəşad adlı avtomobil ticarəti ilə məşğul olan şəxslər Rüfət Ramazanovdan İbrahim Axundova satılacaq "Rang Rover" markalı, 90 FO 989 dövlət qeydiyyat nişanlı avtomobilin "KapitalBank" ASC-nin Rabitə filialına girov qoyularaq pul götürülməsini xahiş etmiş, R.Ramazanov bununla razılaşdıqdan sonra 13 avqust 2010-cu il tarixdə öz adına avtombili banka girov qoymuş və avtomobilə dair İ.Axundova idarə edilməsi üçün ümumi etibarnamə vermişdir. Təqribən ilyarım sonra həmin avtomobil İ.Axundov tərəfindən bir Yevlax rayon sakininə, sonuncu tərəfindən isə 01.03.2012-ci il tarixdə digər şəxsə satılmışdır. Avtomobilə dair kredit ödənişləri bir müddət odənilsə də sonradan edilməmiş və hazırda banka 13.407 dollar əsas borc, 8.564 dollar məbləğində isə kredit borcu yaranmışdır.

R.Ramazanov avtomobilin saxlanılması və ona qaytarılması üçün Nəsimi Rayon Məhkəməsində mülki iddia qaldrımış, həmin məhkəmənin 11.06.2014-cü il tarixli qərardadı ilə iddia təmin edilərək icrası Nəsimi rayon İcra Şöbəsinə və Baş Dövlət Yol Polisi İdarəsinə həvalə edilmişdir.

Şikayətçinin İ.Axundovun barəsində Bakı BPİ İstintaq və Təhqiqat İdarəsinin icraatında olan cinayət işinin aparılmaması barədə iddialarına gəlincə qeyd olunmalıdır ki, sözügedən iş üzrə iki vətəndaşın 34 min manata yaxın vəsaitini dələduzluqla ələ keçirməsi faktına görə İ.Axundov istintaq orqanı tərəfindən CM-nin 178.3.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir. İstintaq dövründə İ.Axundov zərərçəkənlərə maddi ziyanı ödədiyindən məhkəmə tərəfindən həbs qətimkan tədbiri ev dustaqlığı ilə əvəz edilmişdir.

Onu da nəzərinizə çatdırırıq ki, R.Ramazanovun şikayətində göstərdiyi xüsusatlar hazırda istintaq orqanı tərəfindən araşdırılır".

❑ **M.MAHRIZLI**

# Beynəlxalq Bankın keçmiş rəhbəri haqda müdhiş xəbərlər

**Azərbaycan Beynəlxalq Bankın (ABB) sabiq rəhbəri Cahangir Hacıyevlə bağlı mətbuatda vaxtaşırı xəbərlər yayılır. Adı dövlətin 6 milyard manat *(bəzi mənbələr bu məbləğin 10 milyard olduğunu iddia edir-red.)* vəsaitini yeyib dağıtmaqda hallanan sabiq ABB rəhbəri neçə illərdir medianın diqqətindədir. İnternetdə onun barəsində axtarış verdikdə məlum olur ki, Beynəlxalq Bank və onun sabiq rəhbəri haqda neçə illərdir yazılır. Bu yazılanlara bu gün nəzər saldıqda C.Hacıyevin Beynəlxalq Bankı sanki bilərəkdən çökdürdüyünə inanmamaq olmur.**




# Cahangir Hacıyevlə Ramiz Rzayevin ofşor ortaqlığı - şok iddia

## Beynəlxalq Bankın əsas maxinasiyalarının həyata keçirildiyi Lüksemburq filialının müdiri Ali Məhkəmənin sədrinin oğludur; Moskva filialında da çirkli pulların yuyulduğu haqda ciddi xəbərlər var; ABB-nin batacağı haqda 4-5 il öncə nələr yazmışdıq?

Demək, 4-5 il öncəki yazılarda beynəlxalq maliyyə qurumlarının ABB ilə bağlı bədbin proqnozları boşuna deyilmiş. İllər öncə Cahangir Hacıyevin dövlətin milyardlarla dollar vəsaitini dağıtdığı deyilirdi, yazılırdı. Amma həmin dövrdə nə beynəlxalq reytinq şirkətlərinin açıqlamalarına fikir verilirdi, nə də yerli medianın yazılarına. Çünki o zaman büdcə neft milyardları hesabına şişmişdi. Neftin qiymətinin sürətlə düşməsi Beynəlxalq Bankda yoxa çıxan, yeyilən və "yuyulan" milyardları yada saldı...

Bu yazını hazırlayarkən google axtarış sisteminə müraciət edib bəzi məlumatları dəqiqləşdirmək istədik. Qarşımıza xeyli maraqlı məqalələr çıxdı. Həmin məqalələr Beynəlxalq Bankın çətin durumundan, C.Hacıyevin qara əməllərindən bəhs edir. Məsələn, 16 dekabr, 2011-ci ildə "Yeni Müsavat"da "Cahangir Hacıyev Beynəlxalq Bankı batırır" başlıqlı yazı dərc olunub. Təxminən 4 il öncə yazılan bu məqalədə bildirilir: "Azərbaycanın ən iri və vaxtilə ən nüfuzlu banklarından biri olan Beynəlxalq Bankın vəziyyətinin riskli olduğu barədə daha bir beynəlxalq reytinq agentliyi öz qiymətini açıqlayıb. "Fitch" reytinq agentliyi Azərbaycanın Beynəlxalq Bankının (ABB) uzun müddətli və qısa müddətli, fərdi və dayaq reytinqlərini aşağı salıb. Uzunmüddətli reytinq əvvəl "BBB-" idisə, indi "BB+"-dur. Agentliyin açıqlamasında deyilir ki, ABB-nin reytinqlərinin endirilməsinə səbəb bankın rekapitalizasiyasının , yəni borclarının səhmlərinə nisbətinin qaydaya salınmasının ləngidilməsi, bankın tənzimləmə qaydalarına riayət etməməsidir. "Fitch" hesab edir ki, ABB-nin vaxtlı-vaxtında kapital dayağı yoxdur, ona görə bankın reytinqi investisiya səviyyəsində qala bilməz".

Həmin məqalədə yazılıb ki, ABB 2010-cu ildə görünməmiş həcmdə - 111 milyon 124 min manat ziyana düşüb. **Sitat:** "Deloitte & Touche" şirkəti bu haqda 82 səhifəlik şərti auditor rəyi verib. O, ABB-nin saytında yerləşdirilib *(www.ibar.az)*. 2011-ci ilin fevralında ABB Azərbaycanda təkcə bank xidmətlərindən 48,8 mln manat xalis mənfəət əldə etdiyini bildirilmişdi. Qrupun ziyanı 2009-2010-cu illərdə Moskvada bir neçə tikinti şirkətinə 377 mln manat məbləğində uzunmüddətli kreditlərin dəyərsizləşməsi üzrə itkilər üçün ehtiyat yaradılması nəticəsində baş verib. Bu, məcmu kapitalın 362,6 mln manatdan *(31 dekabr 2009-cu il)* 251,5 mln manatadək azalmasına səbəb olub. Bankın nizamnamə kapitalı isə 240 mln manatdır. ABB-nin maliyyə vəziyyətinin pisləşməsi ona gətirib çıxarıb ki, bank iki ildir dalbadal AMB-nin səhmdar (6%) və məcmu (12%) kapitalın adekvatlığı tələbini ödəyə bilmir. Əgər 2009-cu ildə bu göstərici müvafiq olaraq 7,97% və 11,27% idisə, 2010-cu ildə 5,1% və 8,25% olub. Demək, AMB istənilən vaxt maliyyə sanksiyası tətbiq edə, hətta ABB-nin lisenziyasını ləğv edə bilər .Auditor hesablayıb ki, səhmdarlara məxsus kapital 2009-cu ildən 108,3 mln manat azalıb və 31 dekabr 2010-cu il üçün 229,7 mln manat olub". Məqaləni aşağıda verdiyimiz linkə daxil olmaqla oxumaq mümkündür.

**Beynəlxalq Bank və onun sabiq rəhbəri haqda daha bir yazı 20 Dekabr 2011-ci ildə "Yeni Müsavat"da dərc olunub. Həmin yazıda C.Hacıyevin Moskvada supermarketlər şəbəkəsi açmağa hazırlaşmasından bəhs edilir. Həmin yazıdan sitat:** "Son günlər bir-birinin ardınca iki nüfuzlu beynəlxalq reytinq agentliyi tərəfindən kredit reytinqi aşağı salınan, xarici auditor tərəfindən ötən ili rekord həcmdə ziyanla başa vurduğu üzə çıxarılan Azərbaycan Beynəlxalq Bankı ilə bağlı yeni xəbər var. Rusiya KİV-ləri xəbər verir ki, bankın Moskva filialı bu ölkənin iri şəhərlərində onlarla böyük supermarketlər şəbəkəsi qurmaq üçün azərbaycanlı iş adamlarına kifayət qədər ciddi məbləğdə kredit verib.

"Kommersant" qəzetinin xəbərinə görə, ABB-Moskva bankı tərəfindən maliyyələşdirilən kredit layihəsi çərçivəsində iki il ərzində Rusiyanın iri şəhərlərində "Setka" adlı supermarketlər şəbəkəsi yaradılacaq".

**Yazıda bildirilir ki, bu layihəyə Beynəlxalq Bankın Moskva filialı vasitəsilə 100 milyon dollar yatırılıb.**

Yeri gəlmişkən, son günlər redaksiyamıza daxil olan məlumatlarda bildirilir ki, C.Hacıyev qara əməliyyatları əsasən Beynəlxalq Bankın Moskva və Lüksemburq filialları vasitəsi ilə həyata keçirib. Yuxarıda sitat verdiyimiz yazılardan da görünür ki, ABB Rusiyada ən müxtəlif layihələrə küllü miqdarda vəsait yatırdıb. C.Hacıyev hətta Abxaziyada separatçılarla da bəzi biznes layihələri həyata keçirib. Bu haqda "Yeni Müsavat"ın 3 mart 2012-ci il tarixli sayında "Cahangir Hacıyev separatçılarla iş birliyində" başlıqlı məqalədə ətraflı yazılıb. Həmin yazıdan bir hissəni oxucuların diqqətinə çatdırırıq: "Qaynağın bilgisinə görə, C.Hacıyevin şübhəli əməlləri təkcə Abxaziya sərhədləri ilə məhdudlaşmır. O, Beynəlxalq Bankın özəlləşdirməsində iştirak edəcək konsultant şirkətlərin tenderində özünə yaxın şirkətin seçilməsinə nail olub. Bunun üçün ona lobbiçilik edən təşkilat və şəxslərə böyük məbləğli yatırımlar edib.

Mənbənin iddiasına görə, Beynəlxalq Bank çirkli pulların yuyulması ilə də məşğuldur. C.Hacıyev bank vasitəsi ilə çirkli pulları depozit və kredit kimi rəsmiləşdirir və bundan sonra leqal pul kimi Avropadakı bank hesablarına köçürür. Bu pullar hazırda əsasən İran və Yaxın Şərq ölkələrindən gətirilir. Onun, xarici ölkələrdə yaratdığı şirkətlər vasitəsi ilə çirkli pulların yuyulması əməliyyatları artıq ABŞ, Avropa və İsrailin xüsusi orqanlarının diqqətini cəlb etmişdir. Qısa desək, C.Hacıyev Azərbaycanı çirkli pulların yuyulmasında tranzit ölkə kimi tanıtmaq üçün əlindən gələni edir. Bu əməliyyatlar bankın Moskva filialı vasitəsi ilə gerçəkləşir. Məsələn, bu sahədə C.Hacıyevin Azərbaycanda fəaliyyət göstərən "Evsen Group" şirkətinin qurucusu olan Əli Evsen ilə sıx "işgüzar" əlaqələri olub. Əli Evsen adı indiyədək bir çox qalmaqallarda hallanıb. Onunla bağlı sonuncu qalmaqal İspaniyada baş vermişdi. Yada salaq ki, Ə.Evsenin Madriddə həbsinə səbəb keçmiş Misir prezidenti Hüsnü Mübarəkin pullarının leqallaşdırılmasında rol alması olmuşdu. Əli Evsen Hüsnü Mübarəkin xəzinədarı sayılan keçmiş ordu generalı Hüseyn Salemlə birlikdə həbs olunub və onlara qarşı çirkli pulların yuyulması üzrə ittiham irəli sürülüb". Yazı ilə ətraflı bu link vasitəsi ilə tanış olaq mümkündür. Xatırladaq ki, ABB-nin Moskva filialında artıq 3-4 aydır ki, yoxlamalar başlayıb.

ABB-nin çirkli pulları yuyulduğu, qaranlıq əməliyyatların aparıldığı ünvanlardan biri də yuxarıda qeyd etdiyimiz kimi, Lüksemburq filialıdır. Bu filialın müdiri Ali Məhkəmənin sədri Ramiz Rzayevin oğludur. Qeyd edək ki, Lüksemburq ofşor zonadır. Bütün ofşor hesablar da bu filialdadır.

**Ofşor bölgələrdə yerləşən banklar vergi ödəmir, bu da onlara maksimal faiz dərəcəsi ilə depozit cəlb etmək imkanı verir. Ofşor bank depozitorun rezidenti olduğu ölkədən kənarda yerləşməklə bir sıra vergi və hüquqi üstünlüklərə malik olur. Buraya etibarlı bank sirri, aşağı səviyyəli və ya ümumiyyətlə olmayan vergiqoyma, depozitlərin çox asan qəbulu, yerli siyasi və maliyyə dayanıqsızlığına qarşı müdafiə daxildir. Vergidən yayınma və çirkli pulların yuyulması ilə əlaqədar ofşor bankçılıq bəzən "kölgə iqtisadiyyatı" və mütəşəkkil cinayətkarlıqla əlaqələndirilir.**

❑ Aydın ABBAS




# MTN İŞİD-in fəaliyyətində iştirak edən qrupu zərərsizləşdirdi

## Terrorçu şəbəkə ilə əlaqələri olan 5 nəfər həbs edildi

**Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən İŞİD terrorçu təşkilatının fəaliyyətində iştirak edən qrup zərərsizləşdirib.**

Nazirliyin İctimaiyyətlə Əlaqələr İdarəsindən Trend-ə bildiriblər ki, həyata keçirilmiş anti-terror tədbirləri nəticəsində, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, həmçinin, terrorçuluq, yəni dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə, Azərbaycan vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycanın hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları - Xasaylı Şirxan Elxan oğlu, Mikayılov Rövşən Baba oğlu, Adilov Elşən Sərdar oğlu, Hacıyev Vüqar Mehman oğlu və Eyyubov Azər Mətləb oğlu şübhəli şəxs qismində tutulublar.

Faktlarla bağlı MTN-nin İstintaq Baş İdarəsi tərəfindən AR Cinayət Məcəlləsinin 12.1,279.1-ci, 12.3,28,214.2.1, 12.3,28,214.2.3 və 12.1,218.2-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanılıb. Xasaylı Şirxan Elxan oğlu, Mikayılov Rövşən Baba oğlu, Adilov Elşən Sərdar oğlu, Hacıyev Vüqar Mehman oğlu və Eyyubov Azər Mətləb oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs qətimkan tədbirləri seçilib.

Onlardan Mikayılov Rövşən Baba oğlu barəsində istintaq tamamlanaraq Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Həmin məhkəmənin 25 avqust 2015-ci il tarixli hökmü ilə Rövşən Mikayılov ittiham olunduğu cinayətlərdə təqsirli bilinərək 13 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

Təqsirləndirilən şəxslər - Şirxan Xasaylı, Elşən Adilov, Vüqar Hacıyev və Azər Eyyubov barəsində, habelə cinayət işləri üzrə bütün halların araşdırılması, bu hüquqazidd əməllərin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Müəyyən edilib ki, Şirxan Xasaylı, Rövşən Mikayılov, Elşən Adilov, Vüqar Hacıyev və Azər Eyyubov 2013-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən "İslam Dövləti (İŞİD)" terrorçu təşkilatının fəaliyyətində iştirak ediblər.

Yuxarıda göstərilən cinayətlərin törədilməsinə görə Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş cəza müddətləri artırılaraq 20 ilədək və ya ömürlük azadlıqdan məhrumetmə cəzaları müəyyən edilib.

**MTN Azərbaycan vətəndaşlarını ayıq-sayıq olmağa, milli təhlükəsizlik əleyhinə hüquqazidd əməllərdən və milli maraqlara yad təsirlərdən kənar durmağa çağırır.**



# İnsanları nədə qınayaq?

Hüseynbala SƏLİMOV

**Budur, artıq seçki prosesi də başlayıb. Sərəncamın mürəkkəbi qurumamış hakim partiya müxalifəti seçki siyahılarını gizli saxlamaqda, onları ictimaiyyətdən gizlətməkdə qınadı. Nə demək olar? Güman edirik ki, bu da hakimiyyətin "piar-texnologiya"sının bir elementidir - bilirlər ki, müxalifət bu ittihamları cavabsız qoymayacaq və nəticədə elə mənzərə yaranacaq ki, guya seçki dövrü ciddi siyasi debatlarla keçib...**

Əslinə qalsa isə burada heç bir problem yoxdur. Seçki dövrü ciddi reqlamentləşdirilib və hər şey öz vaxtında bəyan da ediləcək, cəmiyyət üçün də açıqlanacaq.

Lap düzünə qaldıqda isə, bu məsələ bir qədər texniki məsələdir - seçki siyahıları partiya strukturlarında müzakirədən və təsdiqdən sonra açıqlanır və bir daha deyirik ki, bu mənada bu problem yoxdur...

Tələsənlər üçün isə qeyd edək ki, deyəsən bu dəfə partiyalar birgə siyahılar tərtib etməyəcəklər, deməli, məsələ bir az da sürətlənəcək...

Bütün digər seçkilərdə olduğu kimi, bu seçkidə də problem başqadır. Özünü və tərəfdaşlarını inandırmalısan ki, seçkiyə qoşulmağa dəyər. Bax, bu ölkədəki bütün seçkilərin bir nömrəli problemidir. Amma görünür ki, elə bunu da problemə çevirmək lazım gəlməyəcək, partiyalar da, müstəqil namizədlər də bu maneəni çoxdan dəf ediblər - kimi başqa bir işi olmadığından, kimi hakimiyyətdən mükafat umduğundan, kimi də sadəcə, seçkidə iştirakdan belə yararlanmağı öyrəndiyindən bu "oyun"a qoşulacaq...

Qalır digər problemlər. Onlar da əvvəl necə olubsa indi də elə yoluna qoyulacaq. Düşünmək lazım deyil ki, bu il əvvəlki illərdən fərqli nəsə baş verə biləcək, yox, hər şey adət etdiyimiz kimi olacaq. Ən azı ona görə ki, bu seçkinin əvvəlkilərdən fərqlənməsi üçün nə biz, nə də hakimiyyət heç nə etməmişik, seçki konfiqurasiyası necə var elə də qalıb - həmin hakimiyyətdir və həmin müxalifətdir...

Elə seçicilər də həmin seçicilərdir. MSK-nın açıqlamalarına görə ölkədə beş milyondan artıq seçici var. Deməli, bu beş milyon nəfər öz səslərinin fərqində deyil. Demirik ki, onlar aciz və qorxaqdır. Yox, belə deyil. Əyalətlərdəki proseslər göstərir ki, bizim insanlar lazım gələndə etiraz da edə bilirlər. Amma hər şey yenə də "NOOOLSUN?" sualına dirənir. Deyirlər ki, bəli, etiraz olur, amma gəl, nooolsun?..

Düşünürük ki, bu, da səbəbsiz deyil. Hakimiyyət hər etirazdan sonra yerli hakimiyyət strukturkarını cəzalandırır. Bu, doğrudur. Amma etiraz edənləri iki qat artıq cəzalandırır ki, bir də onlar etiraz etməyə cəsarət etməsinlər...

Ona görə də təkrar etirazlar üçün nə fiziki, nə də mənəvi güc qalır. Bəli, burada etiraz edib deyərlər ki, bu da bəhanədir. Görən, dünyanın hansı yerində birinci dəfədən hər şey alınır?..

Düzdür, cəmi bir il bundan əvvəl növbəti "rəngli inqilab" yaşayan ölkədə yenə də etirazlar baş qalıdırıb, insanlar etiraz edir, sözünü deyir...

Amma bizdə... Bəli, bizdə isə siyasi səhralıqdır. Hamı, xüsusən də paytaxt Bakıda yaşayanlar siyasi cəhətdən çox passivdirlər. Bəlkə də onlar da haqlıdır və bəlkə də onların da bəraəti var...

Bütün dünyada insanları ona görə qınayırlar ki, onlar seçkilərlə az maraqlanır və seçkilərə getmirlər. Bir sözlə, seçici fəallığı aşağı olur. Bizim insanlar deyə bilər ki, nə olsun, biz ki, seçkiyə gedirik!..

Bəli, onlar haqlıdır, insanlarımızın əksəriyyəti dəfələrlə aldadılmalarına baxmayaraq yenə də seçkiyə gedirlər. Bizdə seçici fəallığı elə də aşağı deyil və bu sarıdan millətdən gileylənməyə haqqımız yoxdur...

Hər dəfə söz verirəm ki, mərsiyyəçilik etməyəcəm, gileylənməyəcəm. Amma burada Türkiyədən misal çəkmək istəyirdim. Fəqət, fikrimi dəyişdim...

Bəlkə də bizim hakimiyyət adamları türk siyasətçilərini də avam və aciz hesab edirlər və düşünürlər ki, bir hökumət nədir ki, onu da qurub başa çıxa bilmirlər?! Gəl, məsələ də elə ondadır ki, bir hökumət, bir parlament və hətta bir məhkəmə çox böyük bir işdir...

Bəlkə biz elə "Bir hökumət nədir? Bir parlament nədir ki?" dediyimizdən bu günə qalmışıq? Belə deyəndə də qayıdırlar ki, axı nə olub bizə?

Məsələ də elə bundadır. Hamı öz qüsurlarını, çatımazlıqlarını və eyiblərini özü görə bilsəydi onda nə vardı ki?

**Hələlik yalnız bir tərəf digərinin "qüsur"unu görür - bu hakimiyyətin bizimlə bağlı qənaəti budur ki, bunlar seçki-filan, demokratiya bilməz... Ona görə də hər şeyi bizim əvəzimizə edirlər. Neyləmək olar? Görünür ki, belə məsləhətdi!**

# Hakimiyyətlə ATƏT arasında gərginlik

## Seçkilərə göndəriləcək müşahidəçilərin sayı Bakını qane etməyib

**Azərbaycan hakimiyyəti ilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu arasında parlament seçkiləri ilə bağlı problem yaranıb. Belə ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) Azərbaycanda keçiriləcək 2015 noyabrın 1-də parlament seçkiləri ilə bağlı qiymətləndirmə missiyası hesabatını hazırlayıb.**

ATƏT-in məlumatına görə, qiymətləndirmə missiyasının ilkin hesabatının məqsədi ənənəyə uyğun olaraq seçkiqabağı mühit və hazırlıq işləri, seçkiqabağı fəaliyyəti qiymətləndirmək idi. Hesabatda Azərbaycandakı seçki kampaniyasının başlanması öncəsi durum mənfi qiymətləndirilib və hakimiyyətə seçkiöncəsi demokratik mühit yaratmaq tövsiyə edilib. Hesabatın nəticə və tövsiyə hissəsində ATƏT DTİHB-nin seçkiləri müşahidə fəaliyyəti önəmini qeyd edib. Hesabatın nəticə hissəsində ATƏT DTİHB seçki prosesinin şəffaf olması üçün səslərin sayılması və hesablanma, o cümlədən seçki kampaniyası zamanı seçki administrasiyası, namizədlərin qeydiyyatı, toplaşma və ifadə azadlıqlarına hörmətlə yanaşılmasını tövsiyə edir.

Eyni zamanda bəyan edilib ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu Azərbaycanda noyabrın 1-də keçiriləcək seçki prosesini izləmək üçün 30 uzunmüddətli müşahidəçi, 350 isə qısamüddətli müşahidəçi göndərəcək. Qısamüddətli müşahidəçilər seçki gününü, seçki prosesini, səsverməni, səslərin sayılmasını izləyəcəklər.

Azərbaycan hakimiyyətinin də narazılığına həm sözügedən hesabatın tənqidi ruhda olması, həm də müşahidəçilərin sayının çoxluğu səbəb olub.

Artıq rəsmi Bakının etirazını Azərbaycan Respublikasının ATƏT yanında daimi nümayəndəliyi vasitəsilə ortaya qoyub. Dünən Daimi Nümayəndəlik ATƏT/DTİHB-nin Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı hesabatına cavab olaraq bəyanat yayıb. Bəyanatda deyilir: "ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Qiymətləndirmə Missiyasının Azərbaycan Respublikasında qarşıdan gələn parlament seçkiləri ilə bağlı 31 avqust 2015-ci il tarixli hesabatına cavab olaraq Azərbaycan Respublikasının ATƏT yanında Daimi Nümayəndəliyi təəssüf hissi ilə bildirir ki, seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün Azərbaycan hökuməti tərəfindən atılan addımlar həmin məruzədə qeyd edilməyib.

Əvvəlki dövrlərdə olduğu kimi, Qiymətləndirmə Missiyasının hesabatı Azərbaycan cəmiyyətinin baxışını tam spektri ilə əks etdirməyi bacarmayıb. Əksinə olaraq, DTİHB ekspertləri Azərbaycanda birtərəfli seçkiqabağı siyasi mənzərə təqdim etməyə cəhd edən bəzi üçüncü tərəf mənbələrinə istinad ediblər. Missiyanın fikrincə, Qiymətləndirmə Missiyasının hesabatı DTİHB seçki müşahidə metodologiyasının etibarlılığını sarsıdır və onun tövsiyələri Azərbaycanda genişmiqyaslı ATƏT / DTİHB müşahidə missiyasının yerləşdirilməsi üçün kifayət qədər əsas ola bilməz".




**Bəyanatda həmçinin seçki məntəqələrinin və elektoratın sayı ilə DTİHB müşahidəçilərinin sayı arasında fərqin olması ilə bağlı narahatçılıq ifadə olunub, müşahidəçilərin sayına etiraz edilib:** "Belə ki, DTİHB-nin özünün təcrübəsinə və seçkilərə müşahidə metodologiyasına zidd olaraq Azərbaycanda parlament seçkilərini müşahidə etmək üçün 30 uzunmüddətli və 350 qısamüddətli müşahidəçi göndərmək niyyəti Azərbaycan tərəfində sual doğurur. Daimi nümayəndəlik Azərbaycan hakimiyyətinin ATƏT çərçivəsində üzərinə götürdüyü öhdəlikləri ardıcıl yerinə yetirərək 6 uzunmüddətli və 125 qısamüddətli ATƏT/DTİHB müşahidəçisini qəbul etməyə hazır olduğunu təsdiqləyir".

Göründüyü kimi, faktiki olaraq Azərbaycan tərəfi ATƏT/DTİHB-nin göndərmək istədiyi uzunmüddətli müşahidəçilərin sayının 6 dəfə, qısa müddətli müşahidəçilərin sayının isə təxminən 3 dəfə azaldılmasını istəyir və bəyanatda dolayısı ilə qeyd olunur ki, Azərbaycan bundan artıq müşahidəçini qəbul etməyəcək. Bir sıra ekspertlər hesab edir ki, bu, Azərbaycan iqtidarı ilə ATƏT arasında seçkilərlə bağlı indidən gərginliyin başlanması deməkdir.

**Müsavat Partiyasının Mərkəzi Seçki Qərargahının sədri, sabiq MSK üzvü Gülağa Aslanlı** bu barədə danışarkən bildirdi ki, hakimiyyət seçkilərə səlahiyyətli müşahidəçilərin gəlməsində maraqlı deyil: "Azərbaycan hakimiyyətinə Rusiyanın nəzarətində olan MDB müşahidəçilərinin gəlməsi daha sərf edir. Çünki onlardan hakimiyyət öz istəyinə uyğun rəyi ala bilir. ATƏT-in müşahidəçiləri isə məhz beynəlxalq normalara uyğun olaraq müşahidəçiliyi daha təkmil aparırlar. Ona görə də hakimiyyət ATƏT müşahidəçilərinin sayının mümkün qədər az olmasını çalışırlar. Biz isə hesab edirik və təklif edirik ki, müşahidə missiyasının üzvləri daha çox olmalıdır. 350 müşahidəçi çox deyil və seçki məntəqələrini əhatə edə bilməyəcəklər. Məntəqələrin müşahidəçiliyinin səsvermə başlayandan bitənə və nəticələr protokollaşdırılandək aparılmasını istəmişik. Bunun üçün əslində 350 yox, minlərlə müşahidəçi göndərilməlidir. Azərbaycan hakimiyyəti isə müşahidəçilərin çox olmasından narahatdır. Hakimiyyətə sual edilməlidir ki, seçkini demokratik keçirəcəyiniz barədə dediklərniz doğrudursa, o zaman nə üçün müşahidəçilərin sayının çox olmasından narahatsınız".

**G.Aslanlı ATƏT-in seçkilərlə bağlı qiymətləndirmə missiyasının hesabatına da münasibət bildirdi:** "ATƏT təmsilçiləri Azərbaycanda olarkən həm müxalifət, həm müxtəlif ictimai təşkilatların nümayəndələri ilə görüşüblər. Həmin görüşdə Müsavat Partiyası da iştirak edib. Biz Azərbaycandakı seçki mühiti haqqında Azərbaycan reallığını tam əks etdirən məlumatlar vermişik. ATƏT-in müşahidə missiyasının ilkin hesabatında bizim verdiyimiz məlumatlar hələ tam şəkildə əksini tapmayıb. Onlar zənnimcə, bir qədər yumşaldıblar. Həmin hesabat ümumən götürsək Azərbaycan reallığını əks etdirən hesabatdır".

Qeyd edək ki, Avropa Şurası da Azərbaycanda keçiriləcək seçkiləri izləmək niyyətində olduğunu bəyan edib. Qurumun müşahidə missiyasına 13 deputat daxil ediləcəyi bildirilib.

Xatırladaq ki, bir müddət öncə bəzi beynəlxalq təşkilatlar Azərbaycandakı parlament seçkilərinə müşahidə missiyası göndərməyəcəklərini bəyan etmişdilər. Məsələn, Avropa Parlamenti Bakı ilə münasibətlərinin soyuqlaşmasından sonra belə bir mövqeni bəyan edib.

**İndi isə belə görünür ki, beynəlxalq təşkilatlar getdikcə mövqelərində dəyişiklik etməyə başlayıblar, Azərbaycandakı seçkiləri daha ciddi şəkildə müşahidə etmək, nəzarətə götürmək xətti tutublar. Bu isə hakimiyyət tərəfindən heç də yaxşı qarşılanmır.**

❑ Etibar SEYİDAĞA

## Prezidentdən icra başçıları ilə bağlı mesaj xarakterli qərar


Zakir Fərəcov


Eldar Əzizov


Asif Əsgərov


İradə Gülməmmədova

# Bakıda icra başçısı "inqilabı" - qalaqurma!

### Zakir Fərəcov Sumqayıtın başçısı təyin olundu; kabinetini tərk etməyəcəyini deyən Eldar Əzizov Səbayelə göndərildi, Asif Əsgərov Nəsiminin icra başçısı oldu; Nəsib Məhəməliyev güdaza getdi; Abşeronun icra başçısı vəzifəsini xanım icra edəcək...

**İki gündür ölkədə icra hakimiyyəti başçılarının dəyişdiriləcəyi ilə bağlı dolaşan xəbərlər nəhayət təsdiqini tapdı. Əslində, icra başçıları ilə bağlı sərəncamın bir gün əvvəl veriləcəyi iddia olunurdu. Bu barədə sosial şəbəkələrdə və saytlarda konkret yazılar da dərc olunmuşdu. Lakin rəsmi sərəncam bir qədər yubandı.**

Prezident İlham Əliyevin sentyabrın 2-də imzaladığı sərəncamla Eldar Əzizov Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Prezidentin digər sərəncamı ilə o, Bakı şəhəri Səbayel rayonuna icra başçısı təyin edilib.

Prezidentin başqa bir sərəncamı ilə Abşeron rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bu vəzifədən azad edilərək, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib.

Həmçinin, prezident sentyabrın 2-də Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəmməd oğlu Məhəməliyevi tutduğu vəzifədən azad edib.

Səbayel rayon İcra Hakimiyyətinin başçısı Asif Yunis oğlu Əsgərov isə bu vəzifədən azad edilərək, Nəsimi rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunub.

Ölkə başçısının başqa bir sərəncamı ilə İradə Akif qızı Gülməmmədova Abşeron RİH-nin başçısı təyin edilib. Buna qədər o, Abşeron RİH başçısının birinci müavini vəzifəsində çalışırdı.

***

Hələ sentyabrın 2-də səhər saatlarında müsavat.com saytı Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqda xəbər yaymışdı. Bu xəbər bir gün öncədən dövriyyədə olsa da, rəsmi təsdiqini tapmırdı. Musavat.com Abşeron Rayon İcra Hakimiyyətinə bununla bağlı göndərdiyi sorğuya sentyabrın 2-də səhər saatlarında cavab almışdı. Cavabda Z.Fərəcovun Sumqayıta icra başçısı təyinatı xəbəri təsdiqlənirdi.

Qeyd edək ki, sərəncam rəsmi elan edilənə qədər ölkə saytlarında ən müxtəlif informasiyalar yayılmışdı. Bəzi mənbələr Sumqayıtın sabiq icra başçısı Eldar Əzizovun Bakının Nizami rayonuna icra başçısı (hazırda həmin post boşdur-red.) göndəriləcəyini deyirdi.

Musavat.com-a daxil olan məlumatda bildirilirdi ki, Sumqayıtın artıq sabiq icra başçısı sayılan Eldar Əzizov bu təyinata özünəməxsus formada reaksiya verib. Sumqayıt İH-dakı mənbələrdən saytımıza daxil olan məlumatda deyilir ki. E.Əzizov Sumqayıtın icra başçısı vəzifəsindən çıxarılıb, Nizamiyə göndərilməsinə kəskin etiraz edib. Mənbənin iddiasına görə, o, əvvəl işlədiyi Bakının Nizami rayonuna icra başçısını göndərilməsini "vurulmaq" kimi qəbul edib.

İddialara görə, o, yaxın ətrafına deyib ki, kabinetdən çıxmayacaq. Hətta sentyabrın 2-də günorta saatlarında Sumqayıtın rəhbər şəxslərini də Sumqayıtda parka toplayaraq, onlara iməciliyə başlamaq göstərişini verib.

E.Əzizov həmçinin, mətbuata belə bir açıqlama da vermişdi: "Mən hazırda Sumqayıt şəhər İcra Hakimiyyətində, kabinetimdəyəm və vəzifəmi icra edirəm. Əgər cənab prezident məni vəzifəmdən azad etsəydi, xəbərim olardı. Dünən mətbuatda yayılan məlumatların bir əsası yoxdur".

Eldar Əzizovun hikkəli münasibəti onunla nəticələnib ki, onu Səbayelə icra başçısı gətiriblər. Səbayelin icra başçısı Nəsimiyə göndərilib, sonuncu rayonun icra başçısı isə vəzifədən azad edilib. O, hələlik işsizdir. Faktiki olaraq Məhəməliyev E.Əzizovun Nizamiyə icra başçısı getmək istəməməsi üzündən onun güdazına getmiş sayılır.

***

Ekspertlər hesab edirlər ki, seçki ərəfəsində prezidentin mühüm yerdəyişmələr etməsi çox ciddi bir məsələdir və mesajdır. Həmçinin, onun Abşerona qadını icra başçısı təyin etməsi də müsbət qiymətləndirilən addımdır.

Hakimiyyətə yaxın olan bir mənbənin deməsinə görə, atılan addımlar neçə vaxtdır barəsində danışılan islahatların tərkib hissəsidir və bunlar davamlı olacaq: "Qarşıdakı müddətdə biz digər strukturlarda da dəyişiklərin, islahatların şahidi olacağıq. Çünki ölkədə yaranmış durum bunu zəruri edir. İqtidar islahatlara getmək iradəsini artıq nümayiş etdirməyə başlayıb".

**Müxalifət düşərgəsinin təmsilçilərinin isə sosial şəbəkələrdə ifadə etdikləri mövqe fərqlidir: Onlar məsələyə ölkədə cəmi bir yeni icra başçısının təyin edildiyi, qalanların sadəcə yerinin dəyişdirilməsi kontekstində yanaşırlar.**

❑ **Tofiq ƏHMƏDLİ**

# Baş nazirin "istefası" xəbərinə rəsmi reaksiya

## Akif Əli: "Heç olmasa bir az utansınlar"

**Sentyabrın 1-də baş nazir Artur Rəsizadənin istefaya getdiyi barədə xəbər sosial şəbəkələrdə və xəbər saytlarında əsas mövzulardan biri oldu. Yayılan xəbərlərə hər hansı dairələrdən rəsmi münasibət öyrənmək mümkün olmasa da, günün sonunda yalnız o məlum oldu ki, əslində A.Rəsizadənin başçılığı ilə Nazirlər Kabinetinin iclası keçirilib və dövlət büdcəsi müzakirə olunub.**

Yeri gəlmişkən, bir həftə öncə Nazirlər Kabinetinin mətbuat katibi Akif Əli qəzetimizə müsahibəsində Artur Rəsizadənin tam sağlam olduğunu deyərək onun vəzifəsindən uzaqlaşmaq niyyətində olmadığını demişdi. Elə isə A.Rəsizadənin guya səhhətinə görə işdən uzaqlaşdığı barədə yayılan xəbərin mənası nə idi, ümumən bu ajiotaj hardan yarandı, onun səbəbləri nə imiş?

Bu suallarla **Nazirlər Kabinetinin mətbuat katibi Akif Əli**yə müraciət etdik. Suallara cavabında Akif müəllim dedi ki, bunun səbəbi onun özünə də məlum deyil: "Həmin vaxt mən iclasda olmuşam və bütün bunlardan sonra xəbər tutdum. Həmin vaxt mənə mətbuatdan 256 zəng gəlmişdi. (gülür) Amma istefa söhbətini kim, niyə yaymışdı, mənə bəlli deyil. Sizə keçən dəfə də demişdim, belə xəbərləri yayarkən kiminsə müəyyən məqsədləri olur. Amma hər halda həmən adamlar sonradan, məsələnin onların yazdığı kimi olmadığını görəndə heç olmasa bir az utansınlar".

**Eyni gündə icra başçılarının yeni təyinatı ilə bağlı da xəbərlərin yayıldığını, hətta onlardan birinin baş nazir gətiriləcəyi haqda deyilənlərin əvəzində A.Əli bunları bildirdi:** "Gördüyünüz kimi, yazıldığı kimi olmadı. Yaxşı bir rus məsəli var: "Slışal zvon, no ne znayu qde on". *("Səs eşidirəm, amma bilmirəm hardan gəlir")* Bunlar da *(bu barədə xəbər yayanları nəzərdə tutur-E.P.)* bəzi adlar eşidiblər, ancaq özləri üçün Ştirlis kimi özüləri üçün versiyalar hazırlayıblar, lakin bunlar yanlış versiya olub. Səs eşidiblər, lakin bilməyiblər həmin səs hardan gəlir".

**A.Əli əlavə etdi ki, baş nazirin adı ətrafında yaşanan "ajiotaj"dan əslində hökumətin hər hansı məlumatı olmayıb:** "Həmin gün hökumət öz işindəydi və çox ciddi bir iclas keçirildi, 2016-cı ilin dövlət büdcəsi müzakirə olundu. Sonradan "ajiotaj" olduğunu mənə gələn telefon zənglərindən, yazışmalardan, işçilərimə zəng edib məni soruşmalarından bilmişəm. Başqa bir ajiotaj olmayıb, hökumət öz ritmində öz işini davam etdirib. Bu ajiotaj sadəcə mətbuatda, sosial mediada ola bilər. Hökumət gündəlik işi ilə məşğul olub, ölkənin taleyi üçün çox əhəmiyyətli iclasını keçirib, çox ciddi müzakirələr olub. Yekunda da cənab prezidentə sənədlərin təqdim olunması üçün qərar qəbul edilib".

**Xidmət rəhbəri 2016-cı ilin dövlət büdcəsinin 6 milyard manat azaldılacağı barədə yayılan xəbərə reaksiyasında dedi ki, onda bununla bağlı rəqəmlər yoxdur**: "Onu yəqin ki, yekunda biləcəyik".


Akif Əli

**Elə fürsət düşmüşkən, hökumət rəsmisindən sabiq maliyyə naziri Saleh Məmmədovun anti-böhran tədbirləri barədə "Yeni Müsavat"da dərc olunmuş təkliflərinə münasibət soruşduq. Maraqlıdır, hökumət maliyyəçi ekspertin təkliflərini dəyərləndiribmi? A.Əli bu təklifləri mətbuatda gördüyünü vurğuladı:** "Ancaq bu barədə dəqiq məlumatım yoxdur. Bəlkə kimsə onu oxuyub öyrənir, hardasa nəzərə alır, ancaq mən bununla bağlı məlumatlı deyiləm".

❑ **E.PAŞASOY**

# Fani dünyanın milyarder Finisi



**Xalid KAZIMLI**

**Efirdə, ekranda, media qarşısında varidatı ilə öyünən, ayda filan qədər xərcləməsi ilə lovğalanan, bahalı avtomobili, ayaqqabısı ilə qürrələnən adamları görəndə mədəni dünyadan nə qədər geridə olduğumuzu anlayır və üzülürsən.**

Bu, görməmişlik, mənəvi cılızlıq əlamətidir və inkişaf etmiş cəmiyyətlərdə belələrini adam yerinə qoymur, onlara etina etmir, varlıqlarını görmürlər. Bu, karikatura mövzusudur. Qərb ölkələri belə davranışları lap çoxdan istehza predmetinə çevirib.

Təəssüf ki, ölkəmizdə elə adamlara həsəd və paxıllıqla baxır, o cür formalaşmamış şəxsiyyətə malik insanları özlərindən üstün tutur, hətta onların yerində olmaq istəyirlər.

Biz hələ toy-nişanda bahalı kostyum, zər-ziba, bəzək-düzək nümayiş etdirmək, bununla kimlərəsə acıq vermək, "düşmən çatlatmaq", "bağır yandırmaq" müstəvisində var-gəl edirik. Varlımız da elədir, kasıbımız da. İmkanlı oğullar atalarının haram pulla aldığı "Buqatti"ni, "Porşe"ni nümayiş etdirərək qürrələnir, kasıb balaları da qabağını göyə qaldırdıqları "Niva" və "07" ilə təşərlənir. İmkanlar müxtəlif olsa da, düşüncə eynidir. Hələ bahalı ayaqqabısı ilə öyünənlər də var.

Parlament seçkilərinə 57 gün qaldığı bir dönəmdə bu cür palaz səviyyəsindən də aşağı davranışlar, hərəkətlər ölkə gündəminə oturursa, uzun-uzadı müzakirə olunursa, bu, çürüklüyün, aşınmanın göstəricisidir.

Amma bu kimi ibtidai cəmiyyət xəstəliklərindən xilas olmuş toplumlar da var. Onlarda dəyərlər başqadır. Onların əsas şövqü sərvət ovçuluğu, əlinə keçəni məngirləmək, hər nə oldu qamarlamaq deyil. Bu saat mədəni dünyada əsas trend xeyriyyəçilikdir. Əsas hədəf dünyanı, ətraf mühiti, insanları, heyvanları qorumaqdır.

Kasıb və təhsilsiz ölkələrin uşaqlarına hər il milyardlarla dollar həcmində maliyyə yardımı göstərənlər var. Biz onlardan bir neçəsini tanıyırıq - Billi Qeytsi, Uorren Baffeti, Karlos Slimi, Corc Sorosu... Amma biri də var və onu çox az adam tanıyır.

Əslində, dünyanın milyarder xeyriyyəçilərinin kralı bu şəxsdir - Çak Fini.

Onun barəsində informasiya azdır. Küçədə, yolda-rizdə onu tanımırlar. Çünki o, ömrü boyu mediadan qaçıb, sadə həyat tərzi sürüb.

81 yaşlı Çak dünya üzrə məşhur olan Duty Free ticarət şəbəkəsinin qurucusudur. Adamın varidatının ümumi dəyəri 7,5 milyar dollardır. Amma cənab Fininin öz maşını yoxdur, metro və taksiylə gəzir. Nəinki villaları, heç öz evi də yoxdur, kirayədə yaşayır, 15 dollarlıq saat taxır. Çak Fini geyim-kecimінə də fikir verən adam deyil, əlbisələrini ucuz yarmarkalardan alır. O, ləzzətli yemək-içmək düşkünü olan qurmanlardan da deyil. Bahalı restoranlar əvəzinə qəlyanaltıxanaları üstün tutur.

7,5 milyardı olan adam haqqında bu informasiyaları oxuyan şəxslər onu qəpik-quruş sayan xəsis hesab edərlər. Amma elə deyil. Çak Fini qazandığı pulu özünün komfortuna xərcləməyi sevməsə də, başqa insanlara xərcləməyi sevir. İndiyədək o, xeyriyyəçilik məqsədilə 6 milyard dollardan çox pul xərcləyib. Bu pullar ABŞ, Vyetnam, Avstraliya, Cənubi Afrika, İrlandiya kimi ölkələrdə ahıllar evinin saxlanmasına, elmə, səhiyyəyə, təhsilə xərclənib.

Çak Fini 7,5 milyard dollarını bu fani dünyada kimlərəsə qoyub getmək fikrində deyil, varidatının hamısını xeyriyyə məqsədilə xərcləməyi düşünür.

Elə çıxa bilər ki, Çak Fini öz xeyriyyəçiliyi ilə öyünən, qürrələnən, bundan həzz alan şəxsdir. Elə də deyil. Onun 15 il sərasər etdiyi xeyriyyəçilikdən heç kəsin xəbəri olmayıb. Axır ki, havadan iy tutan jurnalistlər səxavətli milyarderi "ifşa ediblər". Amma yaxası ələ keçdikdən, tanındıqdan sonra da o, dərhal kamera önünə keçməyib, öz təvazökarlığını, sadə həyat tərzini qoruyub saxlayıb. Ona görə də bu gün onu ana vətəni İrlandiyada belə tanımırlar, küçədə görəndə adi turist hesab edirlər.

Dünyanın ən varlı adamı olan Bill Qeyts deyib ki, Çak Fini xeyirxah əməllərinə görə ideal nümunədir, ona bənzəmək lazımdır. Vaxt gələcək, o da Çak Fini kimi edəcək. Hərçənd indinin özündə də Bill Qeyts xeyriyyəçilik məqsədilə milyardlar xərcləyir, ən başlıcası bu qədər sərvəti ilə öyünmür, qürrələnmir.

Belə insanlar var dünyada. Ancaq maraqlıdır, bizim varlılar nəyə görə özlərinə bu cür milyonçu və milyarderləri yox, təmtəraqlı, qudurğan həyat sürən ərəb şeyxzadələrini örnək götürürlər? Onsuz da o pul-para xərclənir, havaya sovrulub gedir, amma bir var, o pullardan sonra yerində təhsil və şəfa ocaqları, yüksək təminatlı pansionatlar - körpələr, qocalar evi qalsın, bir də var, eyş-işrət və kef məclislərində çəkilmiş biabırçı fotolar, videolar.

**Çoxlarının bəyənmədiyi Qərb dünyası bu gün ona görə bu qədər inkişaf edib ki, onlar pulu harda, necə səmərəli xərcləməyin yolunu çoxdan tapıblar. Bizimkilər isə nəinki o axtarışda deyil, əksinə, pul-paradan başqalarını əzmək, rəqiblərinə yanıq vermək, qürrələnmək üçün istifadə edirlər.**



# Habil müəllim rusca

Zamin HACI
zaminhaci@gmail.com

"Ey taleyi-bivəfa! Bumu illər ilə gözlədiyim həyat? Bumu illər ilə intizarı olduğum istiqbal? Bumu illər ilə həsrətini çəkdiyim səadət? Beləmi günləri mən xəyalımda bəsləyirdim? Ah! Azadə bir bülbül kimi həmişə güllər arasında gəzdiyim halda, indi gör qəza məni nələrə məhkum etmiş?"

**(Cəfər Cabbarlı, "Vəfalı Səriyyə")**

**Kaman çalan Habil Əliyev xəstələnib, bəzi rusdilli saytlarımız və qəzet-məzetlərimiz isə ulduz sənətçinin adını yanlış yazırlar. Düzü, mən bunu görüb pis oldum. Çünki mənə da dəyişir. Habil müəllimin adını rusca "Qabil" yazırlar, səbəb isə guya rus dilində "h" hərfinin yoxluğudur. Halbuki, istəsən tapmaq olar. Problemin məğzi isə ondadır ki, Habil müəllimin adını Qabil müəllim yazanda sənətkar qurbana yox, qatilə çevrilir. Yəqin Hacı Şahinin ensiklopedik mühazirələrinə qulaq asmış uca millətimiz gözəl bilir ki, bu adlar dini rəvayətdən götürülübdür, Habillə Qabil Adəm peyğəmbərin uşaqları olmuşdur. Sonra Qabilin Habilə paxıllığı tutub, vurub rəhmətliyi öldürmüşdür.**

İndi isə bizim rusdilli gülməşəkər jurnalistlər Habil müəllimin adını Qabil müəllim kimi yazanda belə çıxır Habil müəllimin ismi-şərifi bir amansız qatilin adıdır. Belə olmaz. Çıxış yolu da vardır: "Xabil" yazmaq mümkündür. Hətta Habbl da yazsan daha uyğundur, nəinki Qabil. Ümid edirəm, Mətbuat Şurası bu önəmli problemə diqqət yetirər. Başa düşürəm, bu dəqiqə Amaşovun başı Xədicə İsmayılın qanunsuz yerə 7 il yarım həbsi münasibəti ilə dünya ictimaiyyətinə "SOS" teleqramları vurmağa qarışıbdır, ancaq bu da zəif problem deyil.

İkincisi, alçaq ermənilər Zakir müəllimin başı üstündən güllə atıb Tərtərdə toy eləyən camaatı vurubdur. Üç yaralı varmış, mətbuatda gedən xəbərə görə, Tərtər xəstəxanası bunları ağır olduqlarından qəbul eləməyib, deyib aparın Bərdəyə. Yaralılar səhiyyə naziri Şirəliyevin nəzarəti altında imiş, hərçənd bunun özü də dərəbəylikdir, çünki ölkədə ali rəhbərdən başqa kiminsə nəyisə nəzarətə götürməyi qanunla qadağandır.

Həmin Tərtər xəstəxanası 2013-cü ilin mayında əsaslı təmirdən sonra açılmışdır. AzərTAc-ın bu haqda xəbərini də kim istəsə internetdən tapıb oxuya bilər, həmin xəbərdə deyilir ki, xəstəxana ən yeni tibbi avadanlıqlar, yüksək təhsilli həkim heyəti ilə, pulyığan tibb bacıları ilə (bu, xəbərdə yoxdur, mən əlavə elədim - Z.H.) təmin edilmişdir. Bəs indi niyə yaralıları Bərdəyə "qaçırdırlar"? Görüntü üçün, YAP-ın reklamı üçün bina ağardıb telekanalizasiyada göstərənin gözünə elə erməni gülləsi dəysin, ilahi, amin!

Ancaq şiddətli islahatlarımız da gedir, örnək üçün, iki gün qabaq prezidentin sərəncamı ilə taksi sürücülərini qovmaq və JEK-dən 50 manata yaşayış yeri arayışı almaq xidməti ASAN-a verilmişdir. Birinci zarafat üçün yazdım, söhbət taksi sürməyə lisenziya verilməsindən gedir. Nəqliyyat Nazirliyi daha bu işə baxmayacaq. Bəlkə də taksi sürməyi də ASAN-a verməyin vaxtıdır. O cümlədən təkər yamamaq işini.

Yaşayış yeri arayışına gələndə, bunun qədər mənasız sənəd yox idi. Sərəncamda yazılıb ki, JEK-lərdə yaxşı arxiv olmayıb, indi bunu elektronlaşdıracağıq. Əslində JEK-lər dəftər açıb yazırdı, gülünc bir şey idi. Eyni zamanda, bu qərarla JEK-lərin eşşəyinin tamam öldüyünü deyə bilərik, indi onlar heç kəsdən qanunsuz pul yığa bilməyəcək, çünki adətən arayışla şantaj edib pul yığırdılar. Böyük islahatdır, insafən. YAP 20 ildə bunu bacarıbsa, 20 ilə də arayışın formasını taparlar, inşallah. Çünki sərəncama görə arayışı indən belə ASAN verəcək, ancaq bunun formasını DİN müəyyən etməlidir. Guya şəxsiyyət vəsiqəsi bəs eləmirmiş. Olsun, təki canımız JEK-dən qurtarsın. Mən hazırda JEK-dən gəlib "ev pulu verin" deyən arvadı həsrətlə gözləyirəm - başına bir vedrə su tökmək üçün. Bizə bu cür şərait yaratdığı üçün bütün Balaxanı sakinləri adından dövlətimizə və onun rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk.

**Sonda məktəb direktorunun davasının ardını gözləyən hörmətli oxuculara bildirim ki, hazırda sezon tətilindəyik, gələn nömrədə davanın ardı olacaq. Bizi izləyin, çox maraqlıdır.**



# Tovuz və Qazaxda gərgin döyüşlər - düşmən ağır itkilər verdi

## Lavrovun Bakıda olduğu vaxtda Qərb bölgəmiz niyə ermənilərin hücumuna məruz qaldı? Arzu Nağıyev: "Gürcüstana gedən kommunikasiyalar, şose, dəmir yolu, boru kəmərləri oradan keçir"

**Azərbaycan-Ermənistan sərhədinin Tərtər, Tovuz və Qazax istiqamətlərində son günlər gərginlik xeyli artıb. İşğalçı ölkənin ordusu mütəmadi olaraq atəşkəs rejimini pozmaqla yanaşı, həm də dinc əhalini güllələbaran etməkdə davam edir. Ermənilərin həyasızlığı o həddə çatıb ki, hətta sentyabrın 1-də Tərtər rayonunun Qapanlı kəndində keçirilən toy mərasimini atəşə tutublar. Nəticədə, mülki əhalidən 3 nəfər yaralanıb.**

**Ermənistanda nəşr olunan "Aravot" qəzeti isə xəbər yayıb ki, 1 sentyabr gecəsi Qarabağdakı hərbi birləşmələr xeyli canlı itki verib. JAM.az erməni mətbuatına istinadən xəbər verir ki, Azərbaycan Ordusunun açdığı atəş nəticəsində erməni birləşmələrinin 6 hərbçisi öldürülüb. Onlardan birinin zabit, digər 5-nin isə əsgər olduğu bildirilir.**

Ermənistanın Tavuş vilayətinin Azərbaycanla sərhəddə yerləşən Ayqepar və Çinari kəndlərində isə sentyabrın 1-də gecə saatlarında iki erməni əsgəri yaralanıb. Yaralanan hərbçilər Berd şəhərindəki hərbi hospitala aparılıb. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsun Ovannisyan faktı təsdiqləyib.

ANS-in məlumatına görə, erməni mətbuatı tərəflər arasında vəziyyətin gərginləşdiyini yazıb. Bildirilib ki, atəşkəsin pozulması zamanı ermənilər itki verərək geri çəkilməli olub. Ermənistan saytları həlak olanlardan birinin adını da açıqlayıb. "Silahlı toqquşma zamanı cəbhənin şərq hissəsində tağım komandirinin müavini Axarun Armyan həlak olub. Bundan başqa, daha bir zabitin öldüyü bildirilir. Lakin hələlik onun kimliyi bəlli deyil" deyə, erməni mətbuatı öz itkiləri haqqında məlumat yayıb. Yazının sonunda iki gün əvvəl kəşfiyyatçı dəstənin komandirinin öldürülməsi də xatırlanıb: "Daxil olan məlumata görə, iki gün əvvəl azərbaycanlı snayper kəşfiyyatçı dəstənin "Yezid Həsən" ləqəbli komandirini öldürüb." Qeyd edilib ki, Yezid Həsən cəbhənin həmin hissəsində uzun müddət kəşfiyyat aparıb.

Təəssüf ki, döyüşlərdə Azərbaycan tərəfi də itki verib. Musavat.com-a daxil olan məlumata görə, Lerik rayonunun Pirasora kəndində doğulmuş gizir Ağayev Ruslan Qalib həlak olub. Lerik hərbi komissarlığından hərbi xidmətə çağırılıb. Şəhidin qardaşı Musavat.com-a xəbəri təsdiqləyib. Gizirin snayperlə vurulduğu deyilir.

Gizir sentyabrın 2-də doğulduğu kənddə torpağa tapşırılıb.

Mərasimdə onun qulluq etdiyi hərbi hissənin nümayəndələri, rayon icra hakimiyyətinin rəsmiləri və kənd sakinləri iştirak ediblər.

Müdafiə Nazirliyi mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı ilə əlaqə saxladıq. Xidmət rəisi hərbi təlimlərdə olduğunu deyərək bizimlə danışa bilməyəcəyini bildirdi.



Arzu Nağıyev

***

Göründüyü kimi, düşmən daha çox Azərbaycanla həmsərhəd ərazilərdən təxribatlara əl atır ki, bu da səbəbsiz deyil. Hesab olunur ki, Ermənistanın Qərb sərhədlərimizə təcavüzü həm də Kollektiv Müqavilələsi Təşkilatı, konkret olaraq Rusiyanın köməyinə hesablanıb. İrəvan arxayındır ki, Azərbaycanın zərbələrinin qarşılığında Moskva öz hərbi müttəfiqinin müdafiəsinə qalxa bilər. Əks təqdirdə Sərkisyanın qondarma "DQR"-in "müstəqillik günü" ilə bağlı Xankəndinə məhz 1 sentyabrda gəlməsi, üstəlik, Ermənistan ordusunun təxribatlarının artması təsadüfi deyil. Məsələ burasındadır ki, eyni gündə Rusiya XİN başçısı S.Lavrov Bakıya gəlmişdi. Məntiqlə Ermənistan daha ölçülü-biçili hərəkət etməliydi.

**Politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a dedi ki, Ermənistanın təxribatları gözlənilən idi: "Yeni Sərkisyan özünü təmizə çıxardı. Yəni ki döyüş yalnız Dağlıq Qarabağ ərazisində deyil, həm də sərhədyanı rayonlarda gedir. Məlumdur ki, Ermənistan ərazisində Rusiyanın 102 saylı briqadası yerləşir, ermənilər hətta onun təhlükəsizliyinə belə zərər gələ biləcəyini bəyan etmək istəyirlər. Odur ki, bu, taktiki bir gedişdir".

**Rusiya XİN başçısının Bakı səfərindən danışan ekspertin fikrincə, Lavrovun səfərində əsas məqsəd Rusiyanın yenidən regional münaqişələrin həllində rolunun yenidən bərpa edilməsidir:** "Eyni zamanda, münaqişənin həllində təşəbbüsü son vaxtlar ələ almağa çalışan ABŞ-ın rolunu azaltmaqdır. Düşünürəm ki, Lavrovun səfəri zamanı bütün suallarla yanaşı, "DQR"-də keçiriləcək "seçki" məsələsini də qabartmaq vacib məsələlərdən biri olardı".

**A.Nağıyev Ermənistanın Qərb sərhədlərimiz boyu aktivləşməsini sadə məsələ saymır. İstisna etmir ki, İrəvan Rusiya ilə hərbi müqaviləyə arxayın olduğu üçün quduzlaşıb:** "Digər tərəfdən, Dağlıq Qarabağdan başqa əsas zona, Murovdan, Daşkəsəndən keçərək Gədəbəy, Tovuz, Ağstafa və Qazaxda bitir. Bu gün ən strateji sahə Qərb sərhədlərimizdir və əlbəttə hündürlüklər kimin tərəfdədirsə üstünlük də ondadır. Eyni zamanda Gürcüstana gedən kommunikasiyalar, şose, dəmir yolu, boru kəmərləri və s. oradan keçir".

**Politoloq prezidentlərin Amerika görüşünün baş tutmayacağı barədə məlumatlara reaksiyasında qeyd etdi ki, belə bir şəraitdə və Ermənistan tərəfindən atəşkəs rejiminin dəfələrlə pozulması fonunda Prezidentlərin görüşləri real görünmür:** "Ola bilər ki, ABŞ-ın təşəbbüsü ilə Xarici işlər nazirləri səviyyəsində görüşlər olsun. Əlbəttə ki, Madrid prinsiplərinin maddələri əsasında müəyyən danışıqların aparılması mümkündür".

**Belə bir durumda Sterliqovun saxlanması, sonra sərbəst buraxılmasına gəldikdə, A.Nağıyev dedi ki, bu, bir siyasi məsələdir:** "Çünki tutulması da yəqin ki, Rusiyada etdiyi cinayətlərlə bağlıdır. Azərbaycanla bağlı cinayətlərlə isə İnterpol səviyyəsində həll edilməlidir. Təəssüf ki, bu da hələ öz müsbət həllini tapmayıb. Bu məsələnin həlli həqiqətən də Rusiya və Azərbaycan hüquq-mühafizə orqanları arasında ola bilər və tərəfdaşlıq haqqında müqavilələrə istinad edilməlidir".

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015



# Bakı-Vaşinqton münasibətləri üçün daha bir kritik test

## ABŞ Azərbaycana təzyiqin başladığını rəsmən elan etdi; Dövlət Departamenti Xədicə İsmayıl və Leyla Yunusun azadlığı üçün kampaniyaya start verdi; "Hökumətinizə təzyiqləri gücləndirəcəyik..."

**Azərbaycanda növbəti parlament seçkilərinin rəsmi startı verildi. Adətən demokratiya, azad seçki problemi olan ölkələrdəki böyük seçkilər dövründə ən çox hakimiyyətlər beynəlxalq insan haqları təşkilatlarının diqqətində olur, tənqid və təzyiqlərə qarşı xeyli həssaslaşırlar, çünki istənilən səviyyəli seçkilərin beynəlxalq standartlara uyğun təşkilinə müstəsna olaraq iqtidarlar cavabdehdir.**

ATƏT-in, Avropa Şurasının tamhüquqlu üzvü olan və o səbəbdən öz üzərinə təməl insan haqları, o cümlədən siyasi haqlarla *(seçib-seçilmək və s.)* bağlı öhdəliklər götürən Azərbaycan da hələ ki, o cərgədə, problemli dövlətlər sırasındadır. Odur ki, hər dəfə seçkilərin nəticələrini dünyaya tanıtmaqla, yəni legitimliklə bağlı hökumət ciddi problemlərlə üzləşməli olur.

**Bu dəfə də belə olacağı qaçılmazdır.** Ən azı ona görə ki, ölkədə öncəki seçkilər kimi yenə dürüst, bərabər, şəffaf seçkilər üçün minimum şərait, ab-hava hələ ki, yoxdur. Üstəlik, budəfəki parlament seçkiləri dönəminə hakimiyyət 2010 və 2013-cü illə müqayisədə daha zədəli, daha neqativ beynəlxalq imiclə daxil olub.

Söhbət öncəliklə Azərbaycanda mövcud olan siyasi dustaq problemindən və bu problemin son illərdə xeyli ağırlaşmasından gedir. Siyasi məhbus problemi isə bir barometrdir və bütün ölkələrdə söz-ifadə azadlıqlarının böhranlı durumundan xəbər verir ki, bu da demokratik seçki mühiti ilə bir araya sığmaz. Belə bir məşhur yanaşma var ki, "ərazisində hətta bircə siyasi dustağı olan ölkə demokratik sayıla bilməz".

**Əfsus ki, Azərbaycan da eyni sıradadır.** Deməli, qarşıdakı parlament seçkilərinin legitimliyinə nail olmaq üçün ilk növbədə bu məsələdə nələrsə eləmək, yaxud konsensusa nail olmaq vacib şərtdir. Hakimiyyət bunu bildiyi üçün də bəzi önləyici, profilaktik tədbirlər görmək zorundadır - istəsə də, istəməsə də (ilkin reaksiyalar isə parlament seçkilərinə beynəlxalq diqqətin yetərincə böyük olacağından xəbər verir).

Ayrı sözlə desək, 1 noyabr parlament seçkilərinin yekun nəticələrinin tanınması üçün, ATƏT, AŞPA, Avropa Parlamenti, ABŞ səviyyəsində sərt qiymətləndirmələrdən qaçmaq üçün iqtidar müəyyən güzəştli addımlar atmaq məcburiyyətindədir. Ələlxüsus da dünya siyasətinin lokomotivi olan ABŞ-ın "kafi" qiymətini almaqdan ötrü nələrsə eləmək zəruridir - hər halda indiyədək olan acı təcrübə bunu diktə edir.

***

Söz düşmüşkən, dünən ABŞ-ın BMT yanındakı daimi nümayəndəsi Samanta Pauer Dövlət Departamentində keçirdiyi brifinqdə dünyanın hər yerindən olan 20 nəfər qadının siyahısını təqdim edib. Virtualaz.org Rusiya KİV-nə istinadən bildirir ki, daimi nümayəndə ABŞ Dövlət Departamentinin onların azad olunması üçün dəstək kampaniyasına başladığını vurğulayıb.

**Onun sözlərinə görə, siyahıya siyasi və digər məhbusların adı daxildir:** "Biz sizi unutmamışıq, biz azad olunmağınız üçün sizin hökumətlərinizə təzyiqlər göstərməkdə davam edirik". Departamentin siyahısında Azərbaycandan iki nəfərin - bu yaxınlarda 7,5 il həbs cəzası almış Xədicə İsmayılova ilə, 8.5 illik həbsə məhkum edilən Leyla Yunusun da adları var.

***

**Dövlət Departamentinin son açıqlaması yəqin ki, Bakıda "soyuq duş" effekti yaradacaq.** Ən başlıcası, bu, Bakı-Vaşinqton münasibətləri üçün növbəti, ciddi test rolunda olacaq. Çünki adları çəkilən şəxslərə hakimiyyətin yanaşması bəllidir. Başqa yandan, Amerika hökuməti bununla əslində açıq şəkildə anons edir ki, qarşıdakı seçkilərin legitimliyi böyük ölçüdə məhz bu məsələ həlindən asılı olacaq.

O mənada onsuz da vaxtaşırı gərginliklər yaşanan ziqzaqvarı Bakı-Vaşinqton münasibətləri, belə görünür, önümüzdəki parlament seçkilərində daha bir imtahandan çıxmalı olacaq - kririk imtahandan.

Hələlik ABŞ Dövlət Departamentinin iki siyasi məhbusla bağlı prinsipial mövqeyinə Azərbaycan rəsmilərindən reaksiya bildirilməyib. İlkin reaksiyadan isə çox şey aydın olacaq. Bir şey dəqiqdir ki, hakimiyyətin Vaşinqtonla münasibətlərinin soyumasında, xüsusən də seçki ilində gərginləşməsində hamıdan çox Rusiya maraqlıdır. Yəqin ki, səbəb aydındır - niyə?

**Hakimiyyət üçün doğrudan da daha bir seçim anı yetişməkdədir.**

**❑ Siyasət şöbəsi**

# "Ermənistan bizimlə əməkdaşlıqdan boyun qaçırır və məruzənin hazırlanmasını əngəlləyir"

## "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" məsələsi üzrə məruzəçi AŞPA Komitəsində bəyanatla çıxış edib

**Sentyabrın 1-də Avropa Şurası Parlament Assambleyasının Siyasi Məsələlər və Demokratiya Komitəsinin iclası keçirilib.**


Robert Valter

**Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Elxan Süleymanov**un APA-ya verdiyi xəbərə görə, iclasda iştirak edən komitənin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" üzrə məruzəçisi Robert Valter çıxış edərək məruzənin hazırlanmasına Ermənistan tərəfinin maneə yaratdığını və məhz bu səbəbdən məruzənin 1 sentyabr iclasında təqdimatının mümkün olmadığını bəyan edib. O bildirib ki, AŞPA-nın cəhdlərinə və onun çoxsaylı təkidlərinə baxmayaraq, Ermənistan tərəfi məruzəçi ilə əməkdaşlıqdan boyun qaçırır, onun Ermənistana və təmas xəttinə səfərinin təşkilindən imtina edir, bununla da məruzənin hazırlanmasını əngəlləyir.

Məruzəçi bəyanatında Azərbaycan tərəfinin əməkdaşlığa açıq olduğunu və müraciəti əsasında cari ilin mart ayında Azərbaycana səfərinin baş tutduğunu, Bakıda bir sıra görüşlər keçirdiyini deyib. R.Valter nəzərə çatdırıb ki, bu günlərdə yenidən Azərbaycan hökumətinə müraciət edərək Ermənistan tərəfi əməkdaşlıqdan imtina etdiyi üçün məruzəni hazırlamaq məqsədilə təhlükəsizlik şəraitini nəzərə alaraq Azərbaycan ərazisi tərəfdən təmas xəttinə getmək və ya yaxınlaşmaq imkanı yaradılmasını istəyib. O, Ermənistan tərəfinin əməkdaşlıq etməkdən imtina etməsinə baxmayaraq, AŞPA-nın 2015-ci il oktyabr sessiyasında və Komitə iclasında öz məruzəsini təqdim etməkdə israrlı olduğunu vurğulayıb.

**Qeyd edək ki, R.Valter E.Süleymanovun təqdim etdiyi qətnamə layihəsi əsasında 01 oktyabr 2014-cü il tarixində AŞPA Siyasi Məsələlər və Demokratiya Komitəsində "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" mövzusu üzrə məruzəçi təyin olunub.**

# Qaniçən prezidentin legitimliyi



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakı səfəri elə o, gəldiyi gündəcə başa çatdı. Gözlənildiyi kimi, heç bir möcüzə-filan baş vermədi. On görə ki, bəzi nikbin şərhçilərin söyləntilərinə rəğmən, Rusiya XİN başçısı cibində Qarabağa dair həll modeli gətirməmişdi.**

Azərbaycan səfərindən öncə isə Lavrov maraqlı və diqqətçəkici bir açıqlama verməşdi. Suriya mövzusunda ölkəsinin ABŞ-la ziddiyyət təşkil edən mövqeyindən danışarkən nazir sanki Amerikaya, Türkiyəyə, bütün sivil bəşəriyyətə acıq verirmiş kimi, meydan oxuyurmuş təki belə bir ifadə işlətmişdi ki, "Suriyanın başçısı Bəşər Əsəd prezident kimi əla legitimdir".

Yəni o boyda hengamədən, bu boyda vətəndaş qırğınları və vəhşiliklərdən sonra da Suriya diktatorunun hakimiyyətdən getməsini tələb etmək Lavrova, Kremlə görə, əsassız və haqsız imiş.

Bu, əslində Azərbaycana səfər öncəsi Rusiyanın xarici siyasətinin gerçək mahiyyətinin növbəti nümayişi idi. Mahiyyət də ondan ibarətdir ki, şimal qonşumuz Krim məsələsində olduğu kimi, beynəlxalq normaları ayaqaltı eləməkdə, öz maraqlarını hər şeydən, bütün dəyərlərdən, o cümlədən beynəlxalq hüquqdan, təməl insan haqlarından üstün tutmaqda davam edir.

İndi belə bir ölkədən Qarabağa məsələsində ədalətli mövqe ummaq, insaflı münsiflik (arbitrlik) gözləmək əlbəttə ki, absurd olardı. Deyir, "Dostunu göstər, deyim kimsən". Bu gün Rusiyanın, onun rəhbərliyinin dost-müttəfiqləri hələ də hakimiyyətdə qalmaq naminə öz xalqına qənim kəsilən, ölkədə əmin-amanlığın bərpasına var gücü ilə, inadla müqavimət göstərən, milyonlarla həmvətəninin ölkədən didərgin düşməsinə, Avropaya keçmək istəyən uşaqlı-qadınlı yüzlərləsinin isə Aralıq dənizi sularında qərq olmasına bais olan Bəşər Əcəd kimilərdisə, onların qurduqları antiinsani rejimlərdisə, Xocalı canisi Serj Sərksiyan və işğalçı Ermənistandırsa, əlavə şərhə ehtiyac qalmır yəqin ki.

Sözü ona gətiririk ki, neçə illərdir Yaxın Şərqdə - Suriyada, İraqda, Yəməndə axıdılan və axıdılmaqda davam edən tonlarla günahsız qana, həmçinin qaniçən İŞİD terrorunun uzanan ömrünə, hətta PKK azğınlıqlarına görə həm də Rusiyanın hazırkı rəhbərliyi, Putin, Lavrov sorumludur.

Bu mənada Rusiyaya qarşı Qərbin, ABŞ-ın gücləndən sanksiyalar məntiqli və haqlıdır və öncəliklə dünyadakı qaniçən rejimlərin əsas sponsoru və havadarlarından biri olaraq Rusiyanı zəifləməyə, neytrallaşdırmağa yönəlib. Deməli, sanksiyalar həm də humanist, bəşəri xarakter daşımaqla ləyaqət hissini itirməmiş hər bir insanın marağındadır, onun xeyrinədir.

Rusiyanın zəifləməsi o sırada 25 ildir Moskvaya görə həllini tapa bilməyən, milyonlarla vətəndaşı öz yurd yerindən didərgin salınmış Azərbaycanın da marağındadır. Bu, həmçinin o anlama gəlir ki, Rusiya dövlətinin yaşamasına, ayaqda durmasına, böhrandan çıxıb güclənməsinə kömək eləmək elə Qarabağ münaqişəsinin uzanmasın kömək göstərmək deməkdir.

**Bu dərəcədə bəsit bir həqiqət. Yoxsa ki, Putin Qarabağ məsələsinin ədalətli həllinə yardımçı olacaq kimi illüziyalar, sadəlövh ümidlər... Putin 15 ildir Rusiyanın başçısıdır (Dmitri Medvedyev formal prezident idi), bu müddətdə o, problemin yoluna qoyulması üçün əlini ağdan-qaraya vurmayıbsa, belə bir şeyin hər hansı əlaməti ortada yoxdursa, əskinə, konfliktin uzanmasının əsas günahkarıdırsa, o zaman Rusiyanın zəifləyib sıradan çıxması bizim, niyə də Azərbaycan dövləti və xalqının marağımızda olmasın? Elə Kremlin Bəşər Əsəd timsalında legitim sayıb arxasında durduğu qaniçən müttəfiqlərinin də!..**

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015

# Qulu Məhərrəmli Zahid Oruca cavab yazdı - "Rəsulzadənin daşı ağırdı..."

**Bəri başdan deyim ki, siyasi şəxsiyyətləri üz-üzə qoymaq, tarixdə kiminsə rolunu artırıb-əskiltmək, milli yaddaşa hücum çəkmək və tarixin fayllarını dəyişməyə cəhd etmək qədər mənasız bir işdir. Tarix olub-keçmiş, yaşanmış, artıq bizim iradəmizdən asılı olmayaraq daşlaşmış həqiqətləri yaşadır. Bu daşın üzərinə nə qədər saxtakarlıq suvağı çəkirsənsə-çək, yenə ovulub töküləcək və gerçəyi gizlətmək mümkün olmayacaq.**



**"Heç kim Heydər Əliyevin tarixi xidmətlərini dana bilməz, 1993-cü ildə ölkədə vətəndaş müharibəsi qorxusu yarandığı vaxtda siyasi hakimiyyəti ələ alaraq bir çox təhlükələri sovuşduran, antimilli qüvvələri zərərsizləşdirən... bir liderin bacarığına kim şübhə edə bilər ki?"**

**"Məhəmməd Əmin Rəsulzadə milli tariximizin nəhəng simasıdır. İndi varisi olduğumuz Azərbaycan Cümhuriyyətinin yaradıcısıdır. Bunu dansalar da belədir, Cümhuriyyət qurucularından danışanda adını 4-5-ci sırada çəksələr də"**

**"Məsələn, biz necə deyə bilərik ki, Corc Buşdan sonra prezident seçilmiş Barak Obama ABŞ dövlətini qurur. Belə desək, Konqres bizi topa tutar"**

Bu baxımdan professor Şirməmməd Hüseynov 20-ci əsr tariximizin ən mürəkkəb dövrünü vərəq-vərəq araşdırdığı üçün həqiqətə çox yaxındır. Normal düşünən adam onun dediklərində heç bir qərəz görmür.

Zahid Oruc da uşaq deyil, bildiyi çox şeylər var. İndi biz durub desək ki, gənc deputat orta məktəb dərsliyində izah edilmiş dövlət-hakimiyyət anlayışlarının fərqini bilmir, düzgün olmaz. Bilir, qəşəng bilir, amma azad düşüncə sahibi olan Şirməmməd müəllim deməişkən, onun öz ağlı, öz yanaşması və öz siyasi mövqeyi var. Bax, bu siyasi mövqe Zahid Oruca həqiqəti görməyə mane olur. Həqiqət isə çox dərində deyil, onu heç bir bələğətli söz yığnağı altında gizlətmək mümkün deyil, hətta, deputat leksikonundakı ən munis sözlərə qol-qanad versək belə.

Tarixin yaddaşında qlobal ideyaların daşıyıcıları qalır. Bu baxımdan kimin ona hansı təsir altında və necə münasibət bəsləməsindən asılı olmayaraq, Məhəmməd Əmin Rəsulzadə milli tariximizin nəhəng simasıdır. İndi varisi olduğumuz Azərbaycan Cümhuriyyətinin yaradıcısıdır. Bunu dansalar da belədir, Cümhuriyyət qurucularından danışanda adını 4-5-ci sırada çəksələr də. Amma hiss olunur ki, Rəsulzadənin daşı çox ağırdır, neçə illərdir ona qısqanc, hətta düşmən münasibət var, hakimiyyətdə olanlar, ondan danışanda gözləri gülmür. Əvvəllər xidmətlərini görməzliyə vurur, sıradan biri kimi qələmə verir, onu süni şəkildə silahdaşlarına qarşı qoyurdular. Arxivlər açıldıqca, onun millət qarşısındakı misilsiz xidmətləri üzə çıxdıqca, şəxsiyyətinin parıltısı gözləri qamaşdırınca taktika da dəyişdi, ünvanına kiməsə torpaq vermək, xaricə qaçmaq, qızıl aparmaqda və s. gülünc ittihamlar yağdırmağa girişdilər.

İndi də Heydər Əliyevlə üz-üzə qoymağa başlayıblar Rəsulzadəni... Onu sevib-sevməməyindən asılı olmayaraq, heç kim Heydər Əliyevin tarixi xidmətlərini dana bilməz, 1993-cü ildə ölkədə vətəndaş müharibəsi qorxusu yarandığı vaxtda siyasi hakimiyyəti ələ alaraq bir çox təhlükələri sovuşduran, antimilli qüvvələri zərərsizləşdirən, getdikcə hakimiyyəti möhkəmlədən və sabitlik yaradan bir liderin bacarığına kim şübhə edə bilər ki? Heç hörmətli Şirməmməd müəllim də bunlara şübhə etmir, amma sadə bir məntiqlə deyir ki, dövlət qurmaq başqa şeydir, hakimiyyət yaratmaq başqa. Məsələn, biz necə deyə bilərik ki, Corc Buşdan sonra prezident seçilmiş Barak Obama ABŞ dövlətini qurur. Belə desək, Konqres bizi topa tutar. Yəni hakimiyyətə gələnlər hökuməti pis, yaxud yaxşı yönəldər, dövləti gücləndirə və ya zəiflədə bilərlər, amma dövlət qurmaq bir az fərqli anlayışdır.

Deməyim odur ki, dövlətlə onun əsas atributlarından biri sayılan hakimiyyət arasında bərabərlik işarəsi qoymaq olmaz. Heç Cümhuriyyət dövrü ilə bu gün arasında da bərabərlik işarəsi qoymaq olmaz, ona görə ki, fərqli hərbi-siyasi şərait, fərqli beynəlxalq vəziyyət, bölgədəki fərqli geosiyasi durum fərqli davranışlar tələb edirdi. Ona görə Zahid bəy deyəndə ki "Şirməmməd Hüseynovun Məhəmməd Əmin sevgisində bir acıma və tarixi yanğı var: onlar Heydər Əliyevin edə bildiklərini bacarmayıblar" - kökündən yanlışlıq yapır. Həm də bir az həqarətə və ən azı iki ciddi qəbahətə yol verir.

Əvvəla, bələd olduğum üçün deyirəm ki, Şirməmməd müəllimin Rəsulzadəyə səmimi sevgisində heç bir acıma, yanğı, təəssüf və ya kiməsə qarşı qərəz yoxdur. Bilənlər bilir ki, bu kişi sözünü həmişə birbaşa deyir. Tədqiqatlarında da belədir, olanı deyir və təbii ki, millətin siyasi tarixinin möhtəşəm epizodundan qürurlanır və xalqın Məhəmməd Əmin miqyasda düşüncə sahibi olmasından fəxarət duyur. Məncə, bunun heç kimə ziyanı yoxdur. Professorun sözünün təsirini artıran əsas məqam budur ki, Cümhuriyyət tarixini heç kimdən mükafat ummadan, deputat və ya akademik olmaq fikrinə düşmədən, heç bir maraq güdmədən, bu millətin sabahını düşünərək təmənnasız və obyektiv araşdırır.

Zahid Orucun ikinci və daha ciddi yanlışlığı Heydər Əliyevi demokratik respublikanı quranlara qarşı qoymasıdır. Onun cümhuriyyət xadimlərinə münasibətdə "Heydər Əliyevin elədiyini bacarmadılar" deməsi absurddur. Bunu hansısa savadsız futbol azarkeşi desəydi, anlamaq olardı, amma bu cəfəngiyat Zahid bəyin dilindən səslənir. Əslində bu, siyasi mənsubiyyəti olan bir adamın özünü korluğa qoyub tarixə təpik atması deyil, həm də çox səfeh müqayisə və nihilizmdir. Nəzərə almaq lazımdır ki, "şəxsiyyətləri üz-üzə qoymazlar" deyən deputatın tarixə belə yanaşması Heydər Əliyev kimi böyük siyasi xadimə əlavə hörmət gətirmir, amma Cümhuriyyət quran babalarımızın ruhunu incidir. Bu isə qaşınmayan yerdən qan çıxarmaqdır.

# Həkimin qandallanmasına həmkarlarından reaksiya gəldi

**Həsrət Rüstəmov:** "Onun cəzalandırılması düzgündür"
**Adil Qeybulla:** "Bu, arzuolunmayan bir hadisədir"
**Paşa Qəlbinur:** "Həkim heç vaxt istəməz ki, xəstəsinə nəsə olsun"

**Xəbər verdiyimiz kimi, jurnalist Anar Niftəliyevin həyat yoldaşı, Bakı Slavyan Universitetinin dekanı olmuş tənqidçi Elnarə Tofiq qızının ölümü ilə bağlı cinayət işi üzrə məhkəmə qərarına görə onu əməliyyat etmiş həkim Firuz İbrahimov barəsində 2 il 6 ay müddətinə azadlıqdan məhrumetmə hökmü çıxarılıb və məhkəmə zalında həbs edilib. İbrahimovun məsuliyyətsizliyi və həbsinə digər həkimlərin də münasibətini öyrəndik.**



**ADP-nin sədr müavini, ixtisasca həkim və ehtiyatda olan tibb xidməti baş leytenantı Həsrət Rüstəmov** həkimin cəzalandırılmasının düzgün qərar olduğunu bildirdi: "Həkimlik fəaliyyəti ilə bağlı dünya praktikasında və qanunvericilikdə iki cür hal nəzərdə tutulur. Biri həkim səhvidir. Həkim səhvinə görə cinayət məsuliyyəti düşmür. Həkim bilərəkdən, qəsd xarakterli, yaxud məsuliyyətsizlikdən xəstəyə zərər vermir. Bu hallarda həkimə müxtəlif cəzalar verilir. Amma cinayət məsuliyyətinə cəlb edilmir. Bu da doğru yanaşmadır. Bilirsiniz ki, tibb elmi hələlik bütün xəstəliklərin dərmanını tapa bilməyib. Çoxlu sayda xəstəliklərin müxtəlif müalicəsində obyektiv səbəblərdən problemlər yaranır. Digər bir hal isə həkimin məsuliyyətsizliyindən cinayətə cəlb olunmasıdır - yəni həkim laqeydlik göstərərək xəstəyə diqqətlə yanaşmır. Bu cür məsuliyyətsizlik xəstənin həyatının itirməsinə gətirə bilir. Bu hal baş verdikdə qanunvericiliyin tələbi ilə həkim cinayət məsuliyyətinə cəlb edilir. Cinayət olduğu üçün cəza da olmalıdır. İndi biz hadisənin tam təfərrüatına bələd deyilik".

**H.Rüstəmov məsələ ilə bağlı mətbuatda yanlış fikirlərin yer aldığını bildirdi:** "İctimai rəydə, mətbuatda qeyri-professional şərhlərə rast gəlirik. Məsələn, bir həkimin xəstəsi ölübsə, bu xəstənin obyektiv səbəbdənmi, yoxsa həqiqətən də ağırlaşmadan öldüyünü araşdırmamış qatil, cinayətkar həkim yazmaq və bunu təbliğ etmək düzgün deyil. Bu, həkimə də, səhiyyəyə də, insanlarımıza da ziyandır. Amma indiki halda konkret məhkəmə hökmü var. Əgər məhkəməyə inanırıqsa, deməli, həkim bu hadisədə məsuliyyətsiz olub. Şəxsən mən bu haqda qəti bir rəy söyləyə bilmərəm. Belə görünür, hadisə həkimin məsuliyyətsizliyindən olub. Ona görə də həkimin cəzalandırılması düzgündür".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** olayın tibb sahəsinə baş ucalığı gətirməyən hadisə olduğunu dedi: "Bu məsələlər bizim iradəmizdən, baxışımızdan asılı deyil. Məsələdə məhkəmə tibbi ekspertizasının qərarı çox önəm kəsb edir. Hər halda bu qərar hakimlərə əsas verib ki, həkimi cəzalandırsınlar. Sadəcə, düşünürəm ki, bu, arzu olunmayan bir hadisədir. Yəni ictimai fəal, intellektual bir şəxs xırda bir əməliyyatdan dünyasını dəyişir. Bu tibb sahəsinə baş ucalığı gətirməyən hadisədir. Jurnalistin körpə uşaqları və sairə çox ürəkağrıdıcıdır. Amma bir tərəfdən məsələnin hüquqi qiymət alması və həkimin cəzalandırılmasını son hadisələr aktuallaşdırdı. Son hadisələrdə Anar Niftəliyevə qarşı olan kobudluq, müəyyən saxta arayış və digər məsələlər yəqin ki, buna təkan vermiş oldu. Ümumiyyətlə, tibb ictimaiyyətində bu cür həkim səhvlərini dünyanın hər yerində xüsusi komissiyalar araşdırır və uyğun adekvat bir rəy hazırlayıb ondan sonra bir qərar çıxarır. Bizdə isə bu cür məsələlər hüquq-mühafizə orqanları tərəfindən dərhal həll olunur və onların da rəyi əks tərəf üçün subyektiv olur".

**Tibb elmləri doktoru, professor Paşa Qəlbinur** hər iki tərəfə acıdığını bildirdi: "Həkim heç vaxt istəməz ki, onun xəstəsi pis olsun. Dərdi Allah verir. Həkimlər də istəyirlər ki, imkan dairəsində insanlara kömək etsinlər. Mən baş verən hadisənin təfərrüatı, xəstənin tarixi ilə yaxından tanış deyiləm. Mətbuat vasitəsi ilə oxumuşam ki, belə bir hadisə olub. Bu cür hadisələri araşdırmaq üçün tibbi komissiya olmalıdır. Ziddiyyətli, əks fikirlərdə olan tərəflərin hansının həqiqətə uyğun olduğunu bilmək üçün həmin komissiya araşdırma aparır və həqiqəti üzə çıxarır. Bizdə isə bu cür komissiya mən biləni yoxdur. Sonuncu olayda həkimə verilən cəza hüququn predmetidir. Ancaq burada bir şeyi yadda saxlamaq lazımdır ki, həkim heç vaxt istəməz ki, xəstəsinə nəsə olsun. Əksinə, xəstədən də çox həkim onun yaxşı olmasını istəyər. Hər iki tərəfə də acıyıram. Allah ölən xanıma rəhmət eləsin. Qalanlara da Allah kömək olsun. Ölən də onun ailəsi də, həbs edilən də sanki mənim doğmalarımdır. Çünki onlar bizim soydaşlarımızdır. Allah hər birinə səbir versin".

❑ **Günel MANAFLI**



# Xalça Muzeyinin direktor müavinindən ilginc açıqlamalar

## Asya Şirəliyeva: "Röya Tağıyevadan soruşmaq lazımdır ki, 59 min konsepsiya üçün ayrılmış vəsaiti hansı məqsədlərə sərf edib?"

**Azərbaycanı dünyaya tanıdan Xalça Muzeyində xoşagəlməz olayların yaşanması haqda məlumat vermişdik. "Xalça Muzeyindəki "xalçaaltı məsələlər" üzə çıxdı" sərlövhəli yazıda muzey direktoru Röya Tağıyevanın hərəkətlərinin işçilərin böyük etirazına səbəb olduğundan söhbət açılırdı.**

***Muzeyin direktor müavini Asya Şirəliyeva "Yeni Müsavat"a müsahibə verib və mədəniyyət ocağındakı korrupsiyanın dözülməz həddə çatdığını təsdiqləyib:***

- Xalça Muzeyi Azərbaycanı dünyaya tanıdan, ölkəmizin qədim tarixi köklərinin varlığını sərgiləyən, dövlətimizin xaricdə tanınmasına xidmət edən məkandan korrupsiya yuvasına çevrilib. Bu gün Xalça Muzeyində pas atmış cinayət əməlləri məcrasından çıxıb, artıq aşıb-daşır. Muzeydə fəaliyyət göstərən Ekspert Komissiyasında da misli görünməyən cinayət əməlləri baş alıb gedir. Uzun illərdir ki, komissiya Röya Tağıyevanın şəxsi mənafeyinə xidmət edir. Əvvəllər komissiyadan gələn gəlirlərdən komissiyanın üzvlərinə qanuni, müəyyən qisim əmək haqqı verdirdi. Bu gün artıq komissiyanın üzvləri sözün həqiqi mənasında paya möhtacdırlar. Həmin pay onların çəkdikləri əməyin qarşılığı deyil. Bir sözlə, ekspert komissiyası Röya Tağıyevanın şəxsi komissiyası kimi fəaliyyət göstərir. Komissiyada sertifikat almaq üçün konkret qiymət qoyub. Xalçalar üçün sertifikat alanların demək olar ki, 90 faizinə qaimə sənədi verilmir.

Əksər hallarda Ekspert Komissiyasından üzvlərinə "xidmət pulsuzdur" deyib aldadırlar. Günün hər vaxtında, həftənin hər bir günündə, hətta bayramlarda belə sertifikat almaq mümkündür. Yetər ki, əlin cibində olsun. Röya Tağıyeva vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dövləti aldadıb, külli miqdarda sərmayə toplama "qanunu"dur. Dediklərimizi təsdiq etmək üçün Hesablama Palatasının nəticələrinə göz atmaq yetərlidir. İllərdən bəri sertifikat yazılmayan sənət nümunələri var. Kitab yazmaq adı ilə də xeyli pul mənimsənilib.

***- Hansı kitabdan söhbət gedir?***

- "Azərbaycan Xalçası" kitabının çapına BMT-nin rəhbərliyi altında bp AMOCO şirkəti sponsorluq etmişdi. Kitabın çapına 110 min manat ayrılmışdı. Kitabın ərsəyə gəlməsində muzeyin o dövrdəki əməkdaşlarının böyük əməyi oldu. Röya Tağıyeva da kitab üzərində işləyən işçilərdən biri idi. Lakin həmin kitabın kitab kimi ərsəyə gəlməsində Qoşqar Qoşqarlının əməyi hər kəsdən çoxdur. Bunu muzeydə hər kəs bilir. Əslində həmin kitabın əsl müəllifi Qoşqar Qoşqarlıdır. Kitab böyük şöhrət qazanıb. Ondan gələn gəlirin 90 faizi Röya Tağıyevanın cibinə axır.

***- Bu kitabın çapına görə digər müəlliflərə pul ödənilməyib?***

- Çox cüzi bəlkə kimlərəsə pul verilib. Amma pulun böyük hissəsi mənimsənilib. Vaxtilə qondarma "Şeyx Səfi" şirkətinin adı ilə kitablar mənimsənilib. Həmin kitabları muzey üçün çox ucuz qiymətə alıblar. Hazırda isə 250-300 min manata satılır. Kitablar bu gün Röya Tağıyevan şəxsi kitabı kimi satılır. Qondarma "Şeyx Səfi" şirkəti də Röya Tağıyevaya məxsus olub. Şirkəti qanunsuz fəaliyyətinə görə Mədəniyyət və Turizm Nazirliyi bağladı.

***- Həmin şirkətin muzeyə aidiyyəti vardımı?***

- Birbaşa aidiyyəti yox idi. Həmin şirkətin adı ilə muzeydə sərgi biletləri tərtib edilirdi və biletlərdən gələn pullar mənimsənilirdi. Külli miqdarda pullarsa təbii ki, Röya Tağıyevanın cibinə axırdı. Artıq yeyilən pulların izi örtülüb. Toz qonub, tapdanıb, torpağa qarışıb.

***- Muzeydən bahalı mebellərin daşınması faktlarının varlığı haqda da məlumatlar var. Doğrudurmu?***

- Muzeyin inventarları illərdir ki, köhnəlmiş adı ilə silinir. Röya Tağıyeva qızlarının 20-25 illik mebellərini muzeyə məxsus kitabxanada yerləşdirdi. Özünün şəxsi əmlakı olan İran istehsalı olan böyük masa və kətilləri, divan və kresloları, muzeyin fondunda yerləşdirilən yataq dəstini yeni alınmış adı ilə muzey inventarlarına çevirdi. Təbii ki, buna görə büdcədən muzeyə ayrılan külli miqdarda pul mənimsənildi, dövlətə böyük maddi ziyan vuruldu.

Bundan başqa muzey üçün alınmış bütün kompüterlər uzun illər qızlarının və özünün mənzilində olur, yararsız hala düşdükdən sonra muzeyə gətirilir və muzeyə alınmış yeniləri ilə dəyişdirilir. Xalça Muzeyində zərərli iş şəraitində çalışan əməkdaşlar yararsız kompüterlərin sayəsində əmək funksiyalarını yerinə yetirməkdə əzab çəkir. Hazırda da belə vəziyyətdir. Əməkdaşlar çıxış yolunu şəxsi avadanlıqlarını işə gətirməkdə görürlər.

***- Muzeydə narazılıqların yeni binaya görə əməkdaşlara əməklərinin qarşılığı kimi ödənilən pulların mənimsənilməsindən qaynaqlandığı doğrudurmu?***

- Bəli, yeni muzey binasının ekspozisiyasının konsepsiyasının 99 faizi Xalça Muzeyinin əməkdaşları tərəfindən işlənib. Lakin heç bir işçi əməyinin qarşılığını ala bilməyib. Röya Tağıyevadan soruşmaq lazımdır ki, 59 min konsepsiya üçün ayrılmış vəsaiti hansı məqsədlərə sərf edib?

***- Muzeydəki "ölü can"lar haqda məlumatların yoxlanılması hansı nəticələr verdi?***

- Muzeydə 25-27 avqustda "ölü canlar"la bağlı yoxlama aparıldı. Yoxlamaların nəticəsi daimi işçilərin heyrətinə səbəb oldu. Röya Tağıyevaya vəziyyətdən çıxmaq üçün "ölü canlar"ın müəyyən qismini işdən azad edib, digər bir qismi isə məzuniyyətə göndərdi. Yerdə qalanları isə müfəttişlərin gözündən pərdə asmaq üçün işə çağırılıb. Amma nə yazıq ki, budəfəki səyləri uğurlu alınmadı. 28 nəfər "ölu can"ı gizlətməyə heç bir örtük tapılmadı, muzeydəki xalçalar belə işin üstünü örtməyə yetmədi. Röya Tağıyeva yoxlama zamanı işə davamiyyət jurnallarını gizlətməkdən belə çəkinmədi. Amma 28 nəfər "ölü can"ı gizlədə bilmədi. Bu adamların maaşları büdcədən ödənilir və hər ay onların adına maaş yazıb illərlə büdcəyə külli miqdarda ziyan vurub.

***- Məsələ ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət olunub?***

- Bəli, müraciət olunub və araşdırma gedir. Bu haqda da məlumat verəcəyik.

***- Vəziyyətdən çıxış yolunu nədə görürsünüz?***

- Biz muzey işçiləri inanırıq ki, Mədəniyyət və Turizm Nazirliyi Röya Tağıyevanın məsələsinə baxıb müvafiq qərar qəbul edəcək. İllərdir ki, bizlər onun qanunsuzluqlarına dözüb Azərbaycan Xalça Muzeyinin adının hansısa xoşagəlməz bir məsələdə hallanmasını istəməmişik. Artıq durum dözülməz həddədir.

❑ E.MƏMMƏDƏLİYEV

# "Yaşayış yeri haqqında arayış ləğv edilməlidir"



Azər Mehtiyev

## Azər Mehtiyev: "Bu sənəd sovet dövründən qalma bir şey olmaqla yanaşı, həm də müasir elektronlaşmış cəmiyyət üçün geridə qalma əlamətidir"

**Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" fərman imzalayıb. Sənəd həm vətəndaşlar, həm də sahibkarlar üçün yeni elektron xidmətlərin tətbiqini nəzərdə tutur. Son fərman "ASAN" xidmətinin fəaliyyətinin genişləndirilməsi baxımdan vacib olmaqla yanaşı, eyni zamanda xidmətlərdə zaman və prosedurların kəskin qısaldılmasına səbəb olacaq. Bəs yeni fərman nələr vəd edir?**

**Ekspert Vüqar Bayramov**un sözlərinə görə, sənəd sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq, lisenziya, sertifikat, şəhadətnamə və digər sənədlərin elektron qaydada verilməsini reallaşdıracaq: "Belə ki, bu məqsədlə "Elektron lisenziya" portalı yaradılacaq. Bu portal "Elektron hökumət"in əsas komponentlərindən biri kimi çıxış edəcək. Bu isə o deməkdir ki, xüsusi razılıq tələb edən fəaliyyət ilə məşğul olmaq istəyən sahibkardan bundan sonra lisenziya almaq üçün nə uzun-uzadı növbəyə, nə də çoxlu sənəd toplamasına lazım gələcək. Sahibkarlar elektron portala müraciət etməklə qısa zamanda lisenziya, sertifikat və digər sənədləri əldə etmək imkanları qazanacaqlar. Portal sahibkarlara yalnız qısa müddətdə deyil, hətta cüzi xərclər ilə sənədləri əldə etmək imkanları verəcək".

**Ekspert qeyd edib ki, fərman eyni zamanda vətəndaşların da arayış almaq problemini həll edəcək:** "Artıq sadəcə şəxsiyyət vəsiqəsi ilə vətəndaşlar arayışları ala biləcək. Bunun üçün də çox qısa zaman tələb ediləcək. Elektron bazada bütün məlumatların yerləşdirilməsi imkan verəcək ki, çox qısa zamanda sistem vətəndaşın bütün məlumatlarını görüb, onun istədiyi arayışı çap edə bilsin. Beləliklə, ASAN xidmətin səlahiyyətləri genişləndirməkdə davam etməkdədir. Bu isə təbii ki, vaxta və hətta pula qənaət edilməsi deməkdir".

**Ekspert Azər Mehtiyev** isə bildirib ki, yaşayış yeri haqqında arayış ləğv edilməlidir: "Arayışın verilməsi prosedurunun elektronlaşdırılması və 1 gün ərzində verilməsi cəlbedici görünür. Ona görə ki, ən azı insanları MİS-lərin ("JEK") caynağından qurtarır. Əslində isə belə bir arayış ümumiyyətlə ləğv edilməlidir. Çünki bu arayış sovet dövründən qalma bir şey olmaqla yanaşı, həm də müasir elektronlaşmış cəmiyyət üçün geridəqalma əlamətidir. Özünə və vətəndaşına hörmətlə yanaşan heç bir ölkədə belə arayış tətbiq olunmur. Elə fərmanda da göstərildiyi kimi, əgər bu arayış heç bir başqa sənəd tələb edilmədən yalnız şəxsiyyət vəsiqəsi əsasında verilirsə, onda buna nə ehtiyac var: elə şəxsiyyət vəsiqəsində vətəndaşın qeydiyyat yeri göstərilib. Əlbəttə ki, ola bilər ki, vətəndaşın qeydiyyat yeri və yaşayış yeri fərqli olsun. Bəs "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi, İAMAS nə üçündür ki? Qoy bu sistem bütün qurumlara və vətəndaşlara açıq olsun və arayış istəyən hər bir qurum bu sistem vasitəsilə vətəndaşın yaşayış yerini dəqiqləşdirsin".

**Onun sözlərinə görə, bu sistemin tətbiqi kəndlərdə yaşayan insanlara təsiri məsələsi də maraqlıdır:** "Hazırda kəndlərdə vətəndaşlara bu arayışı rayon icra başçılarının kənd üzrə nümayəndələri verir. Kəndlərdə ASAN xidmət yoxdur. Kəndlilər arayış üçün rayon mərkəzlərinəmi gedəcəklər? Əgər kəndlərdə olan icra nümayəndələrinin İAMAS sisteminə giriş imkanları olacaqsa, niyə bütün qurumların və vətəndaşların ona girişi olmasın ki?"

**A.Mehtiyev vurğulayıb ki, yaşayış yeri haqqında arayış qanunsuz sənəddir:** "Ölkəmizdə belə sənədin tələb edilməsi çoxdan - 1997-ci il yanvarın 1-dən qanunla qadağan imiş. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə, ölkə vətəndaşından belə arayış istənilə bilməz. Yaşayış yeri haqqında arayışın verilməsi funksiyasının ASAN Xidmətə ötürülməsi barədə bəndi prezidentin fərmanına daxil edənlərin bu yuxarıdakı qanun barədə məlumatları yoxdur?"

❑ RÖYA

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015




# Biri dəvəyə minib təbliğat aparır, o biri sərxoşlarla dil tapır

## Ən maraqlı seçki kampaniyaları, səs gətirən şüarlar; dünya siyasətçilərini uğura aparan üsullar

**Azərbaycanda parlament seçkilərinə rəsmən start verilib. Dünyanın demokratiya beşiklərində, eləcə də demokratiyanın "qırıntıları"nın qaldığı məkanlarda bu dönəm namizədlər üçün olduqca aktiv keçir. Təbliğat, xalqa xitab etmək üçün bir-birindən fərqli variantlar, kreativ kampaniyalar, roliklər...**

### "Atamın babası xətib olub, mənə səs verin..."

"Yeni Müsavat" bu günə qədər diqqəti cəlb etmiş ən ilginc təbliğat kampaniyaları barədə bir dosye hazırlayıb. Başlayaq kerativlikləri ilə fərqlənən Türkiyə siyasətçilərindən.

AKP-dən Konyada deputatlığa namizədliyini verən siyasətçi Osman Yavuz seçki plakatlarında padşah qiyafəsini geyinib və onda poz verib. O.Yavuz iddia edib ki, Sultan Rəşad tərəfindən atasının babasına xətiblik rütbəsi verilib və o, həmin rütbənin əks olunduğu sənədi böyüdərək, onun qarşısında media mənsublarına poza verib.

2009-cu ildə Çanakkalenin Eceabat bölgəsində bələdiyyə sədrliyinə müstəqil olan Vəli Dəmirdaş xalqa müraciət edəcəyi məkana dəvə ilə gəlib. Dəvənin üstündə rayonun mərkəzində gəzən Dəmirdaş xalqı məhz bu cür salamlayıb və onlardan səs istəyib.

MHP'nin Osmaniyyədən deputatlığa namizədi olmuş professor Elif Loğoğlu seçki çalışmalarını motosiklet üzərində şəhər turu ataraq keçirib. Bundan başqa, Loğoğlu iddia edib ki, seçiləcəyi təqdirdə məclisə enlibalaq şalvarla girəcək. Xatırladaq ki, bu cür şalvarı daha çox kənd yerlərində, kəndlilər geyinir.

AK Partiyanın Edirnə Bələdiyyə sədrliyinə namizədi Əhməd Günşen isə seçki hazırlıqlarına meyxanadan başlayıb. O, daha çox meyxanalara toplaşan insanlara seçki platformasını və planlarını anladıb. Bu, cəmiyyətdə ciddi müzakirə və lağlağı predmeti olub. Çünki onun təbliğat aparmaq istədiyi şəxslər daha çox içkili olublar.

### Ən maraqlı və səs doğuran seçki şüarları

**Keçək bəzi seçki şüarlarına.**

"Amerikaya inan" - bu, 2012-ci ildə ABŞ-da Respublikaçılar Partiyasından prezidentliyə namizəd olmuş Mitt Romninin seçki şüarı olub. Onun səs-küy doğuran şüarlarından biri də "Amerikanı amerikalı kimi saxlayaq" olub. Amma sonra məlum olub ki, sonuncunu Ku-Kluks 1920-ci illərdə istifadə edibmiş.

"Putin hamını sevir!", "Ancaq Putin-ancaq qələbə!" - bu da adından göründüyü kimi Rusiya prezidenti Vladimir Putinin seçki kampaniyasında istifadə olunan şüarlardan olub.

"Ya daha pis olacaq, ya da daha yaxşı". Bu ritorik şüarın müəllifi isə qalmaqalları ilə gündəmdən düşməyən rusiyalı siyasətçi Jirinovskiyə məxsusdur.

"Yeni prezident - yeni Rusiya. Daha çoxunu tələb edin". 2012-ci ildə prezidentliyə namizəd olmuş Mixail Proxorovun seçki təbliğatında istifadə olunan şüar.

Qüdrətli ölkəyə - güclü lider. Qüdrətli ölkəyə - layiqli gələcək!

### Siqaret çəkənlərin hüquqlarını müdafiə edən və aborta gedən qadınlara cəza təklif edən.... namizəd....

Qəribə seçki kampaniyaları barədə gəzişmələrə davam edək. Rusiyanın "Vətəndaş gücü" partiyasının lideri Mixaik Barşevski seçki kampaniyasının başlanğıcında bəyan etmişdi ki, siqaret çəkən insanların hüquqlarını da ən azı çəkməyən insanlarınkı qədər qoruyacaq. O, bildirmişdi ki, siqaret çəkən insan "şaxtada küçəyə çıxmaq zorunda olduğu" üçün hüquqları kəskin şəkildə pozulur. Yəni, onlar siqaret çəkmək üçün ofisdə iş otaqlarını, evdə isə oturduqları yeri tərk edib, soyuğa çıxmalıdır ki, bu da onların hüquqlarının pozulmasına, xəstələnməsinə gətirib çıxarır.

Barşevskinin bəyanatı olduqca məntiqsiz idi. Çünki bütün dünyada əks tendensiya özünü göstərir - ABŞ, Avropa və hətta Əfqanıstanda siyasətçilər siqaretdən istifadənin əleyhinə kampaniya apardıqları halda, rusiyalı liderin bu addımı heç də birmənalı reaksiya doğurmadı.



"Bizə hər şeyi Avropa edəcək, ona görə də məhz Avropaya düşməliyik". Bu əcaib şüarın müəllifi isə Rusiyanın Demokratik Partiyasının lideri Andrey Boqdanovdan qeyrisi deyil. Partiyanın strateji məqsədi Rusiyanın Avropa Birliyinə üzv olması idi.

"Aborta görə cinayət məsuliyyəti tətbiq olunsun". Müstəqil deputatlığa namizəd Sergey Baburinin şüarı isə bu idi. Amma onu deputat seçmədilər. Namizədin əsas tezisi bu idi ki, həkimlərin qəti razılığı olmadan aborta gedən qadınlar qanun qarşısında öz cəzalarını alsınlar. Hətta o, bununla bağlı Cinayət Məcəlləsinə əlavələr edilməsini də istəyirdi.

"Vahid Rusiya"nın lideri Boris Qrızlov isə Sosial Müdafiə Fonduna təklif irəli sürmüşdü ki, ölkə xaricində yaşayan ruslara təqaüd verməsin. O, bununla da büdcə vəsaitlərinə qənaət etmək istədiyini bildirmişdi. Amma geniş ictimaiyyət onun bu kampaniyasını çox uğursuz saydı və sonuncu uğur qazanmadı.

### Bizimkilərin son seçki şüarı...

"Yeni Müsavat" müqayisə üçün 2010 parlament seçkilərində Azərbaycandakı yerli siyasi partiya və blokların seçki şüarlarını nəzərə çatdırır:

| Siyasi partiya və bloklar | Seçki Şüarları |
|---|---|
| Yeni Azərbaycan Partiyası (YAP) | Güclü dövlət! Yüksək rifah! |
| "AXCP-Müsavat" bloku | AXCP-Müsavat- xalq üçün qoşa qanad |
| "İslahat" bloku | Blokun ümumi şüarı yoxdur; islahatların, xüsusilə konstitusiya islahatlarının aparılmasını əsas prioritetdir |
| "Demokratiya" bloku | Azadlıq, Məsuliyyət, Tolerantlıq, Sosial Ədalət, Bərabər İmkanlar |
| "Qarabağ" bloku | Qarabağa səs ver! |
| "İnsan naminə" bloku | İnsan məqsəddir, vasitə deyil |
| Azərbaycan Mili İstiqlal Partiyası (AMİP) | İstiqlaldan istiqbala |
| Demokratik Azərbaycan Dünyası Partiyası (DADP) | Yolumuz haqq yoludur, Heydər Əliyev yoludur, millət yoludur |

### Obamanı uğura aparan seçki kampaniyası - nələr edilib?

Bu arada ABŞ prezidenti Barak Obamanın seçki strateqlərinin maraqlı tezislərini də unutmaq olmaz. Onların apardığı uğurlu kampaniya və əldə etdikləri nəticələr dünya siyasət kitblarında, mühazirələrində də ana mövzulardan sayılır.

Güclü namizəd, yetərli mesaj və köklü arqument.... Bu üçlüyün üzərində qurulub uğurlu bir kampaniya. Bundan başqa, Obamanın seçki kampaniyasında yerli aktyorlara daha çox yer verilib. Onlar hər könüllüdən bir "lider" yaradıblar və mərkəzdən çıxan mesajlar bölgə liderlərindən könüllülərə, oradan da səs verənlərə çatdırılıb. Bu səbəbdən də təbliğat üçün meydana çıxarılan şəxslərin savadlandırılması önəmli şərtlərdəndir. ABŞ liderinin PR menecerlərinin qızıl qaydası həm də budur: Neçə qapını döyməyin vacib deyil. Vacib olan nə qədər yaxşı dialoq qura bilməkdir. Çatdırılması lazım oan ortaq mesajlar lazımi anda, lazımi şəxslərə çatdırılmalıdır.

Bərbər salonlarından ibadətxanala qədər siyasət barədə müzakirələrin aparıldığı hər yerdə seçki təbliğatı aparmanın vacibliyi vurğulanıb: "Bərbəri öz tərəfinizə çəkə bilərsiniz. Siyasətin müzakirə mövzusu olduğu hər yerdə bu cür söhbətlər aparıla bilər və daha çox insana çatmaq mümkündür".

Kampaniyanın ana xətlərindən biri də aşağıdakı kimidir: Sizə səs verməyəcəyinə əmin olduğunuz kütlə ilə boş vaxt keçirməyin. Qərarsız seçicinin kim olduğunu analiz etmək lazımdır. Keçmişdə kimə səs verib? Bu analizdən sonra həmin şəxslərlə ünsiyyətə girmək lazımdır.

Aylıq 500 milyon sabit istifadəçisi olan Twitteri imperatorluğa bənzərən PR-çılar hesab edir ki, dünyada nə olursa, əslində Twitterdə olur. Onların fikrincə, ümumiyyətlə, siyasətçilər Twitterdən son dərəcədə ağıllı şəkildə istifadə edirlər.

2012-ci il ABŞ prezident seçkilərində Obamanın Digital Kampaniya Direktorluğu vəzifəsini üzərinə götürən Teddy Goff deyib ki, 19 ay davam edən seçki kampaniyası zamanı 95 faiz heç yerdə işləməyən insanlarla işləyiblər və onlara üstünlük veriblər: "İnsanlar əvvəlki kimi CNN-ə baxmır, əvəzində Facebook ve Twitter'da daha çox vaxt keçirir. Seçki kampaniyalarında pozitiv bir dildən istifadə etdik. 5-10 il sonra insanların digital mediaya çatımı daha çox olacaq və onun təsiri çoxalacaq".

❑ **Sevinc TELMANQIZI**

# Ölkədə saxta və təhlükəli düyülər satılır...

## Təbii yolla yetişdirilməyən düyülər həyat üçün təhlükəlidir, bunun ölkəyə gətirilməsində maraqlı olan qüvvələr var...

**Azərbaycana saxta düyülərin gətirilməsi barədə iddialar təsdiqlənir. Ekspertlər müxtəlif ölkələrdən gətirilən bu məhsulların GMO-lu və orqanizm üçün təhlükəli olmasını vurğulamaqla yanaşı, mənşəyi məlum olmayan düyülərin də gətirilmə ehtimalının yüksək olduğunu qeyd edirlər. Bildirilir ki, marketlərdə daha çox saxta düyülər satılmaqdadır. Həmin düyülərin əksəriyyəti təbii yolla yetişdirilmir.**

Marketlərdə apardığımız müşahidələr zamanı məlum oldu ki, satışda daha çox yerli düyülərdir. Ancaq başqa ölkələrin məhsulları kimi göstərilən düyülərin də əksəriyyətinin üzərində Azərbaycanda qablaşdırıldığı göstərilib. Həmçinin, daha çox "Azərsun"un sifarişi ilə qablaşdırılan məhsullardır. Elə bəzi ekspertlər məhz "Azərsun" kimi monopolistlərin ölkəyə zərərli məhsullar gətirməkdə maraqlı olduğunu vurğulayırlar. İddialara görə, Çin və Tayvan istehsalı olan düyülər daha çox həmin şirkətlər vasitəsi ilə ölkə bazarına gətirilir və insanların sağlamlığı təhlükəyə atılır. Yerli düyülərlə yanaşı, Pakistan, Hindistan, Rusiya, İran və digər ölkələrdə istehsal olunan düyülər də Azərbaycan bazarında satılır. Qiymətlər də müxtəlifdir. İlk baxışdan Rusiya, Hindistan istehsalı adlandırılan əksər düyülər isə yerli istehsaldır. Yəni qabın üzərində Hindistan düyüsü olduğu yazılsa da, kiçik hərflərlə Bakıda qablaşdırıldığı göstərilib. Satıcılar isə bildirirlər ki, əhali daha çox yerli düyülərə üstünlük verir: "Sadə paketlərdə olan yerli düyülər daha çox alınır".

**Ancaq Hindistandan gətirilmə düyülərin də alıcıları var.** "Düyülərin saxta olmağı ilə bağlı bir söz deyə bilmərəm. Hindistan düyüsü də alınır. Ən bahalı düyülər də Hindistanındır. Ən ucuz düyü yerli düyülərdir",- deyə satıcı xanım bildirir.

Ekspertlər isə məsələ ilə bağlı narahatlıqlarını bildirirlər. Yəni ölkənin ərzaq bazarının təhlükəsizliyi qorunmadığından, saxta və ən əsası, zərərli məhsulların bazara "soxulması" mütləqdir. Bu isə ciddi fəsadları olacaq problem olduğundan, rəsmi qurumlar tərəfindən ciddi yanaşılması vacibdir. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da ölkəyə saxta düyü gətirildiyini vurğulayır. O, Musavat.com-a açıqlamasında qeyd edib ki, bunun üçün xeyli münbit məqamlar var: "Ölkədə sertifikatlar gətirilən malın partiyası üçün yox, ayla, illə, yəni müddətdən asılı olaraq verilir. Məsələn, bir illik sertifikat alan şəxs bu müddətdə ən müxtəlif növ düyü gətirib ölkədə sata bilir.

Ölkədə müstəqil ekspertiza yoxdur. Bu problemlərə görə ölkəyə keyfiyyətsiz, saxta, zərərli düyünün idxal olunması istisna olunmur. Çoxsaylı ölkələrdən bizə düyü gətirilir. Hindistandan, Tayvandan, İrandan, Pakistandan düyü gətirilir. Bilmək olmur ki, Banqladeşdən gətirilən düyü harada qablaşdırılır. Ayrı-ayrı ölkələrdə qablaşdırılan düyülərin əslində hara istehsalı olması və keyfiyyəti şübhəlidir. Bu məhsullar ekoloji çirklənmiş ölkələrdən də gətirilə bilər".




**Qeyd edək ki, ekspertlər saxta düyülərin digər dənli bitkilərdən üyüdülərək əldə edildiyini bildirirlər. Bildirilir ki, bu, o qədər də ziyanlı deyil. Eyyub Hüseynov isə bəzi düyülərin Genetik Modifikasiya Olunmuş (GMO) düyülər olduğunun təsdiq edilmiş bir məsələ olduğunu vurğulayır:** "Sarı və qızılı düyülərin Genetik Modifikasiya Olunması birmənalı şəkildə təsdiq edilmiş bir məsələdir. Xüsusən də Pakistandan gətirilən qızılı düyülər GMO məhsuludur. Bu düyülər insan həyatı üçün təhlükəlidir və gələcəyi məlum olmayan nəticələrə gətirib çıxara bilər. əslində qanunla bu tip düyülər ölkəmizə buraxılmamalıdır. Dövlət orqanları bu istiqamətdə iş aparmalıdır. Ölkə bazarlarında bu cür təhlükəli mallar çoxdur".

**Bəzi ekspertlər qeyd edirlər ki, düyülərin əksəriyyəti un və plastik materialdan hazırlanır. Un və plastik materialın qarışığından hazırlanan düyü xeyli möhkəm olur. Saxta düyünü isə fərqləndirmək mümkün deyil. Bir neçə il əvvəl Çin saxta düyü istehsal edərək satışa çıxarıb. Onun hazırlanmasında sintetik qətrandan da istifadə edilir. Çin bu düyüləri istehsal etməklə kifayətlənmir, bir çox xarici ölkələrə də idxal edir. Ekspertlər həmçinin rəsmi qurumların hərəkətsiz olduğundan da narahatlıqlarını və narazılıqlarını bildirirlər.**

❑ **RÖYA**

**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Möcüzə baş vermədi: Rusiya xarici işlər naziri Sergey Lavrovun qəfil Bakı səfəri çərçivəsindəki müzakirələrdə Dağlıq Qarabağ məsələsi epizodik yer aldı və protokol xətrinə yada salındı. Rusiyalı ekspertlərin də proqnoz elədiyi kimi, əslində Lavrov Bakıya cibində Qarabağa dair həll paketi ilə də gəlməmişdi və buna ümid eləmək sadəlövhlük olardı.**



Aleksandr Xramçixin



# Lavrovun doğrulmayan Qarabağ vədləri

## Rusiya XİN başçısının Bakı səfəri münaqişənin həllinin Moskvadan ötrü prioritet olmadığını ortaya qoydu; **rusiyalı ekspert**: "Azərbaycan öz ərazilərinin işğalda qalmasına çox dözməyəcək, Bakı nəhəng məbləğdə silahları boşuna almayıb..."

**İkinci yandan, Moskva problemin həllində səmimi şəkildə maraqlıdırsa, bundan ötrü XİN başçısını Bakıya və ya İrəvana göndərməyə lüzum yoxdur. Kremlin məsələdə indiyədək tutduğu qeyri-konstruktiv mövqeyin bir azca dəyişməsi kifayətdir.**

Əgər Bakı görüşlərində prezident İlham Əliyevin və Sergey Lavrovun bəyan etdikləri kimi, iki ölkə arasında əlaqələr həqiqətən yüksək səviyyədədirsə, o zaman niyə də Rusiya Azərbaycanın 1 nömrəli probleminin yoluna qoyulmasında təşəbbüskarlıq göstərməsin - üstəlik, konfliktin həll açarı özündə ola-ola?

***

"Azərbaycan Rusiya ilə ikitərəfli münasibətlərin səmərəli və uğurlu inkişafının davam etdirilməsində maraqlıdır". Bunu Bakıda Lavrovla görüşündə Azərbaycan prezidenti İlham Əliyev deyib. Ölkə başçısı vurğulayıb ki, Rusiya prezidenti Vladimir Putinin Rusiyanın Müstəqillik Günündə Birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Azərbaycana səfər etməsi Bakıda çox yüksək qiymətləndirilib: "Bu, bizim münasibətlərin yüksək səviyyəsinin bariz nümunəsidir".

**Prezident sözünə davam edərək deyib:** "Ötən müddət ərzində bizim nazir Moskvaya səfər edib, indi siz buradasınız. Yəni bu, bizim münasibətlərin dinamik inkişafının göstəricisidir. Biz ikitərəfli xarakterli bir çox məsələləri operativ və səmərəli şəkildə həll edirik, həmçinin, beynəlxalq qurumlarda fəal əməkdaşlıq edirik, xüsusən də hazırkı zamanda dünyada və bizim regionda hər şeyin belə dəyişdiyi bir dövrdə mütəmadi məsləhətləşmələr aparırıq".

"Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfəri istənilən halda ikitərəfli və regionu narahat edən məsələlərə aiddir". Bu sözləri isə jurnalistlərə açıqlamasında **Milli Məclisin vitse-spikeri Bahar Muradova** söyləyib. O, Rusiya XİN rəhbərinin Azərbaycana səfəri ilə bağlı bəzi mətbuat orqanlarında yayılan məlumatlara şərh verməyə lüzum görmədiyini deyib: "Mən o məlumatlarla bağlı fikir və şərh verə bilmərəm. Düşünürəm ki, bunlar ehtimallardır. Bu gəliş, görüşlər və orada müzakirə olunan məsələlər iki ölkənin qarşılıqlı münasibətlərinin daha da yaxşılaşmasına və bu münasibətlərin regionun inkişafına yönəlməsinə təsir göstərən məsələlərdir".

Bu yerdə yada salaq ki, "Yeni Müsavat" da daxil, bəzi mətbu orqanlar Sergey Lavrovun Azərbaycana səfərini Rusiyanın Azərbaycana təsir imkanlarını genişləndirmək cəhdi kimi qiymətləndirib.

Öz növbəsində Sergey Lavrov Azərbaycan prezidenti ilə görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edib. Dağlıq Qarabağ məsələsinə toxunan diplomat konfliktin həll prosesində tərəqqiyə ümid elədiyini söyləyib. "İkitərəfli əlaqələrin, regiondakı situasiyanın və Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi üçün sizinlə görüşmək imkanını yüksək qiymətləndirirəm. Bu o mövzudur ki, sizin rəhbərliyiniz altında, Ermənistan və Rusiya prezidentlərinin, həmçinin də ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin rəhbərliyi altında ümumi məxrəcə gətirməyə çalışırıq" - qeyd edib Rusiya xarici siyasət idarəsinin başçısı.

***

**Yəni yenə növbətçi, şablon bir bəyanat. Bunun bənzərini Sergey Lavrov təxminən iki ay öncə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Moskva görüşündə söyləmişdi.** Bildirmişdi ki, "Qarabağa dair danışıqları intensivləşdirməyin zamanı çatıb". Bəs nəticə?

Üstündən iki aydan çox ötüb, amma ortada heç nə yoxdur. Olması gözlənilmir də. Xüsusən də NATO-nun bölgədə, Gürcüstanda möhkəmlənməyə başlamasından sonra Qarabağ ixtilafının Moskva üçün dəyər-sanbalı daha da artıb. Çünki bu problem regionun üç ölkəsindən ikisini - Azərbaycanla Ermənistanı Qərbə, NATO-ya yaxınlaşdırmaqdan çəkindirmək üçün Moskva üçün heç vaxt olmadığı qədər effektli vasitə rolundadır.

**Vaxtilə mərhum politoloq Vəfa Quluzadənin dəqiq ifadə elədiyi kimi, Rusiya heç Dağlıq Qarabağın Ermənistana verilməsi variantına da razı olmaz.** Nədən ki, ona hələ ki dondurulmuş şəkildə də olsa, münaqişənin özü gərəkdir. O üzdən də Moskva daim belə bir yayğın, tamamilə absurd və qeyri-real mövqedən çıxış edir ki, "Bakı ilə İrəvan Qarabağa dair razılığa gəlsin, Rusiya bu anlaşmanın qarantı olmağa hazırdır". Məsələ də ondadır ki, İrəvan Moskvanın izni olmadan bu məsələdə heç bir addım atmaz.

**Şimal qonşumuz yuxarıda deyilən səbəbdən konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində də maraqlı deyil.** Bunu heç formal şəkildə belə dilə gətirmir. Heç indiyədək bircə dəfə Rusiya rəsmilərinin dilindən eşitmişinizmi ki, "Rusiya Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü dəstəkləyir, işğal altındakı ərazilər qeyd-şərtsiz azad edilməlidir" söyləsinlər?

Olmayıb. Hətta İran yetkililəri vaxtaşırı belə açıqlamalar səsləndiriblər, Rusiya rəsmi şəxsləri isə - yox. Ən yaxşı halda "Rusiya DQR adlı müstəqil qurum tanımır" kimi açıqlamaların şahidi olmuşuq ki, bu da sürüşkən ifadədir. Çünki Moskva "DQR"-i bu gün tanımır, sabah isə kim bilir, öz mənafeyi diktə edərsə, Abxaziya və Cənubi Osetiyadakı kimi onu tanıya da bilər.




***

**Beləliklə, Rusiya XİN başçısının Bakı səfəri münaqişənin həllinin Kreml üçün prioritet olmadığını bir daha ortaya qoymuş oldu.** Bu problem həll olunmadan isə iki ölkənin münasibətləri heç vaxt həqiqi mənada yüksək səviyyəyə qalxmayacaq. Ən önəmlisi, rəsmi Moskva istəsə də, istəməsə də, o halda müharibə riskləri güclü olaraq qalacaq.

Diqqətçəkicidir ki, belə bir ehtimalı rusiyalı analitiklər də görür və xəbərdarlıq edirlər. Məsələn, Moskvadakı Hərbi və Siyasi Analiz İnstitutunun direktor müavini Aleksandr Xramçixin əmindir ki, Azərbaycanla Ermənistan arasında yeni müharibə ehtimalı yüksəkdir: "Qarabağ münaqişəsi dondurulmuş vəziyyətdə mövcud ola bilər, ancaq unutmayın ki, Azərbaycan ərazilərinin 20 faizini itirib. Mən heç bir səbəb görmürəm ki, Azərbaycan rəhbərliyi bundan sonra da bu vəziyyətlə barışmaqda davam edəcək" (virtualaz.org).

"Əgər belə davam edəcəksə, o zaman Bakı nəyə görə nəhəng məbləğlərdə pulları silahlı qüvvələrə xərcləyirdi? Azərbaycan Rusiyadan böyük miqdarda hücum silahları alıb: təkcə T-90 tankları 200-ə yaxındır. Hələ ağır odsaçan sistemlər, "Smerç" reaktiv yaylım atəşi sistemləri və s. demirəm" - tanınmış ekspert qeyd edib.

**Qüvvələr nisbətinə gəldikdə, Xramçixinə görə, hazırda texnikanın və silahlanmanın keyfiyyəti baxımından Azərbaycan Rusiyadan sonra postsovet məkanında ikincidir:** "Lakin şəxsi heyətin hazırlığı məsələsinə gəldikdə işlər necədir, bunu demək çətindir". Onun fikrincə, Qarabağdakı əvvəlki müharibədə Azərbaycan məhz silahlı qüvvələrinin mənəvi-psixoloji hazırlığının aşağı olmasına görə uduzub. "İndi vəziyyət necə dəyişib, baxmaq lazımdır"- Xramçixin əlavə edib.

**Lakin ekspertin sözlərinə görə, Azərbaycanın İsraildən nəinki "Dəmir dəbilqə" raketdən müdafiə sistemləri, eləcə də orta mənzilli EXTRA ballistik raketləri, habelə Pakistandan uzaqmənzilli "Hatf-4" ballistik raketləri aldığına dair məlumatlar həqiqətə uyğun deyil**: "Eləcə də erməni tərəfinin Rusiyanın Ermənstana "İsgəndər" raketlərini verəcəyinə dair məlumatlar doğru deyil. Bütün bunlar tamamilə istisna olunub".



## Ermənistan fəlakətli durumda

**Ermənistan iqtisadiyyatına yatırılan xarici investisiyalar ötən illə müqayisədə üç dəfə azalıb. Erməni mətbuatının yazdığına görə, dağ-mədən sənayesi istisna olmaqla hazırda iqtisadiyyatın bütün sferaları üzrə investisiyalar azalıb (axar.az). Bildirilir ki, Ermənistan Avrasiya İqtisadi Birliyinə qoşulduqdan sonra bu proses daha sürətlənməyə başlayıb.**

Qeyd edək ki, işğalçı ölkəyə bu il yatırılan xarici investisiyanın həcmi 65 milyon dollar təşkil edib. Halbuki ötən il bu rəqəm 180 milyon dollar olub.

# "Avtovağzal" metro stansiyası nə vaxt istifadəyə veriləcək?

## Ərazidə hazırda intensiv tikinti işləri gedir; stansiyada 20 eskolator, 7 çıxış, 8 travelator quraşdırılacaq







**"Memar Əcəmi 2" (keçid stansiyası) və "Avtovağzal" metrostansiyaları 2016-cı ilin ilk yarımilliyində istifadəyə veriləcək. "Avtovağzal" metrostansiyasının istifadəyə verilməsini səbrsizliklə gözləyənlər hələ bir az da səbr etməli olacaqlar. Bu barədə məlumat Bakı Metropolitenindən verilib. Bəs, görəsən hazırda metrostansiyanın tikinti və təmiri ilə bağlı işlər hansı mərhələdədir? Açılışı gecikən stansiya həqiqətən deyilən vaxtda təhvil verilə biləcəkmi?**

Metrostansiyada vəziyyətin nə yerdə olduğunu öyrənmək üçün musavat.com-un müxbiri həmin əraziyə baş çəkib, aparılan tikinti işləri ilə maraqlanıb.

Hazırda "Avtovağzal" metrostansiyasının ərazisində intensiv tikinti işləri gedir. Tikinti "Körpü-Bina-Tikinti" şirkəti tərəfindən aparılır. Metronun bayır hissəsində lazımı işlər aparılır, giriş üçün keçidlərin qarşısı düzəldilir. Uzunluğu 2 kilometr 200 metr olan stansiyada son tamamlanma prosesi gedir.

**"Avtovağzal" metrostansiyasının tikintisində çalışan şəxslər metronun içərisində işlərin yekunlaşmaq üzrə olduğunu dedilər:** "Metrostansiyada elə də, böyük iş qalmayıb. Demək olar ki, yekunlaşdırmışıq. Stansiyada döşəmə işləri bitib, divarlar üzlənib. Relslərin quraşdırılması işləri başa çatıb".

Musavat.com-a açıqlama verən **"Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev** "Avtovağzal" metrostansiyasında son durumla bağlı məlumat verdi: "Hazırda metrostansiyada planlama işləri gedir. Tikinti işləri demək olar ki, tamamlanıb. Rabitə sistemləri quraşdırılır və elektrik işləri aparılır. Yanğından mühafizə avadanlıqları quraşdırılır, abadlıq işləri aparılır. 2016-cı ilin ilk yarımilliyində "Avtovağzal" stansiyası istifadəyə veriləcək. Digər stansiyalardan fərqli olaraq bu stansiyada fiziki qüsurlu insanlar üçün lift quraşdırılacaq. Onlar liftlərə yer üstündən minəcəklər və stansiyaya daxil olacaqlar. Stansiyada 20 eskolator, 7 çıxış, 8 travelator quraşdırılacaq".

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli** isə musavat.com-a açıqlamasında "Avtovağzal" metrostansiyasının istifadəyə verilməsinin yubanmasının maliyyə səbəbləri ilə bağlı olduğunu bildirdi: "Hesab edirəm ki, metrostansiyanın açılışının ləngiməsi, qazma işlərinin gecikməsi, nəzərdə tutduğumuzdan daha çox yubanmaya səbəb olur. Bu, maliyyə problemi ilə bağlı olan məsələdir. Başqa bir səbəb yoxdur. Bu, böyük işçi qüvvəsi və külli miqdarda vəsait tələb olunan böyük bir tikintidir".

Ekspert "Avtovağzal" stansiyasının açılmasının həmin ərazidə sıxlığa səbəb olacağı ehtimalından danışdı: "Bildiyiniz kimi, "Bakı Beynəlxalq Avtovağzalı" yalnız beynəlxalq daşımalar və rayonlar üçün nəzərdə tutulub. Onsuz da "Avtovağzal" ərazisində kifayət qədər sıxlıq var, xüsusən taksilərin orada sıxlıq yaratdığının şahidi oluruq. Avropa Oyunlarından sonra Bakı kəndlərindən və qəsəbələrdən gələn marşrut avtobuslarının da "Avtovağzal" ərazisinə birbaşa daxil olması sıxlığın yaranmasına səbəb olur. Əgər bu problemlərin aradan qaldırılması ilə bağlı tədbirlər görülməzsə yeni metrostansiya açılan zaman sərnişinlər sıxlıq yaradacaq və nəqliyyatın hərəkəti məhdudlaşacaq. Əgər sərnişin daşıyan marşrutların istiqaməti digər yerlərə yönəldilərsə, bu sıxlığın qarşısını nisbətən də olsa almaq mümkün olar. Şəhərə daxil olan bəzi marşrutların, misal üçün "215" nömrəli marşrut avtobuslarının son dayanacağı "Memar Əcəmi" metrosunun qarşısı idi, lakin indi bu marşrutun son dayanacağını "Avtovağzal" kompleksinə qədər məhdudlaşdırıblar. Metrostansiya fəaliyyətə başlamamış, açılış olmamış, indidən həmin marşrutların "Avtovağzal"a girişini məhdudlaşdırmaq lazımdır. İstənilən halda metro infrastrukturunun inkişafı, yeni stansiyaların inşası prinsip etibarı ilə nəqliyyat sıxlığının azalmasına xidmət edir. "Avtovağzal" metrostansiyasının açılışı sıxlığın aradan qaldırılması üçün əhəmiyyətlidir. Yox əgər pərakəndəlik, kimlərinsə istəyinə uyğun, nizamsız şəkildə idarəetmə həyata keçirilərsə "Avtovağzal" metrostansiyası "Bakı Beynəlxalq Avtovağzalı"nda görünməmiş sıxlıq yaradacaq".

**Qeyd edək ki, 2013-cü ilin sonunda açılışı nəzərdə tutulan "Avtovağzal" metrostansiyasının istifadəyə verilməsi 2 ildir ki, gecikir. Yeni metrostansiyanın 2016-cı ilin birinci yarsında istifadəyə verilməsi nəzərdə tutulur.**

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**
**Tel: (070) 335 90 15**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# QAT-dan erməni futbolçu ilə bağlı sərt xəbərdarlıq

**Qarabağ Azadlıq Təşkilatı (QAT) "Borussiya" Dortmund komandasının erməni əsilli futbolçusu Mxitaryanın "Qəbələ" komandası ilə oyuna qatılmaq istəyinə qəti şəkildə etiraz edib. Təşkilatın yaydığı bəyanatda deyilir ki, Azərbaycan XİN-in bununla bağlı açıqlaması qəbuledilən deyil: "Azərbaycan XİN bu açıqlaması ilə hökumətin qərarına, Azərbaycan qanunlarına hörmət etmədiyini göstərdi.**

Azərbaycanın sərhədlərini pozaraq işğal olunmuş ərazilərə səfər edən hər kəs ölkəmiz üçün arzuolunmaz şəxsdir. Ona görə də Mxitaryana istisna edilməsi başa düşülən deyil. "İdmanı siyasətə qarışdırmaq olmaz" deyənlərin nəzərinə çatdırırıq ki, Mxitaryan özü hər şeyi siyasiləşdirib, öz işi ilə məşğul olmaq əvəzinə, işğal olunmuş ərazilərə qanunsuz səfərlər edir, qondarma, separatçı rejimin təbliği ilə məşğul olur, Ermənistanın işğalçı hərəkətlərinə bəraət qazandırmağa çalşır. Ona görə də bu adamın Azərbayacana buraxılmasına heç bir halda yol verməK olmaz. O, idmançıdan daha çox, erməni təbliğatçısı, işğalçı Ermənistanın müdafiəçisi kimi çıxış edir".

**QAT daha sonra bəyan edib:** "Borussiya" və "Qəbələ" klublarının, həmçinin Azərbaycan hakimiyyətinin nəzərinə çatdırırıq ki, Mxitaryanın Azərbaycanda oyuna qatılması çox ciddi problemlər yarada, azarkeşlərin emosiyalarını qızışdıra, bədbəxt hadisələrin baş verməsinə səbəb ola bilər. Bu amillər nəzərə alınmalı, vaxtında düzgün qərarlar qəbul olunmalıdır. Biz bir daha Azərbaycan hakimiyyyətindən bu erməni təbliğatçısının ölkəyə buraxılmaması üçün prinsipial mövqə tutmasını tələb edirik. Əks halda biz etiraz aksiyalarının keçirilməsinə başlayacağıq, erməni Mxitaryan isə Azərbaycana daxil olan andan hədəfimizdə olacaq. Baş verə biləcək hadisələrin məzuliyyəti Azərbaycan hökumətinin, "Borussiya" və "Qəbələ" klublarının rəhbərliklərinin üzərinə düşəcək".

**QAT xəbərdarlıq edib**: "Biz Birinci Avropa Oyunlarında ermənilərin iştirakı ilə bağlı təsirli aksiyalar keçirdik, amma tədbirin əhəmiyyətini nəzərə alaraq radikal addımlar atmadıq. İndi və indidən sonra isə bu cür güzəştə getməyəcəyik. Uşaq, böyük, idmançı, siyasətçi olmasından asılı olmayaraq, istənilən ermənənin səfərinin qarşısı qətiyyətlə alınacaq. İlanın özünə də, balasına da, bütün növlərinə də lənət olsun!"

Qeyd edək ki, "Borussiya"nın erməni futbolçusu Henrix Mxitaryan Azərbaycan qanunlarını pozduğuna görə, ona viza verilməyəcəyi xəbəri yayılıb. Mxitaryan hələ Donetsk "Şaxtyor"unda oynayan zaman hazırda işğal altında olan Dağlıq Qarabağa qanunsuz olaraq səfər edib.

❑ **Vüqar MURAD**

YENİ MÜSAVAT
N 194 (6222) 3 sentyabr 2015

# Bakıda kirayə evlər bahalaşıb

## Bunun əsas zərbəsi imkansız ailələrdən olan kirayəçi tələbələrə dəyəcək; ekspert bahalaşmaya 3 səbəb göstərir...

**Yeni tədris ilinin başlamasına 12 gün qalır. Tələbə adını qazanmış minlərlə gənc arasında bölgələrdən də paytaxta oxumağa gələnlər kifayət qədərdir. Bu gənclər təbii ki, indi kirayə evlər axtarışındadır.**

Kirayə mənzillərə olan tələb artdığından, gözlənilir ki, qiymətlərdə nəzərəçarpacaq bahalaşma olacaq. Son qiymətlərlə daha yaxından tanış olmaq üçün "Neftçilər" metrostansiyası yaxınlığındakı "Maklerlər bağına" üz tutduq.

Əvvəlki günlərə baxanda burada evini kirayə vermək istəyənlərin saytı artmışdı. Ancaq tələbat daha çox qız tələbələrə idi. Məlumdur ki, çox insanlar bəlli səbəblərdən öz evini oğlanlara yox, məhz qızlara kirayə vermək istəyir. Elə evini kirayə vermək istəyən Səidə Əliyeva kimi.

Həmsöhbətimiz deyir ki, iki tələbə qız axtarır. Evinin həyət evi olduğunu deyən ev sahibəsi tələbə qızların onunla birgə yaşayacağını, bir otağın tələbələrə aid olacağını bildirdi. Mətbəxin, ayaq yolunun ümumi olacağını deyən ev sahibi bir otağını adam başına 100 manata kirayə vermək fikrində olduğunu söylədi.

Ev kirayəsi ilə məşğul olan makler Əlövsət Quliyev isə kirayə evlərin qiymətində müəyyən bahalaşma olduğunu təsdiqlədi: "Həmişə sentyabr ayından oktyabrın 1-ə kimi evlərin qiyməti baha olur. Buda tələbələrin gəlişi ilə əlaqədardır. Kirayə ev istəyənlər adətən ya metroya yaxın, ya da daxil olduqları universitetlərə yaxın yerdə ev istəyirlər. Həmin ərazilərdə də evlər baha olur, xüsusən də universitetlərin yaxınlığında yerləşən evlərin qiyməti qalxıb. Məsələn, birotaqlı mənzillərin aylıq kirayə haqqı 300 manatdır. Ancaq ev sahibi ilə birlikdə yaşamaq nisbətən ucuzdur. Həmin otaqları 100 manata da götürmək olar. 100 manat ən aşağı qiymətdir. Bir neçə aydan sonra həmin evlərdə 80 manata da qalmaq olar. Amma hazırda 100 manatdır. Həmin şəxslərin çoxu kirayəşinlərinin qız olmasını istəyir. Hazırda metronun "Elmlər Akademiyası" stansiyası ətrafında 350-400 manatdan ucuz kirayə ev tapmaq mümkün deyil. Nərimanov rayonu ərazisində 300 manata da kirayə ev var. Nisbətən kənarda "Neftçilər", "Qara Qarayev", "Həzi Aslanov" metro-stansiyaları ətrafında isə qiymətlər 200-300 manat arasında dəyişir".





**Kirayə ev axtaran yenicə tələbə adını qazanmış Şamaxı rayon sakini Ziyad İbrahimov da qiymətlərin olduqca baha olduğunu deyirdi:** "Kirayə evlər çox bahadır. İnsan ali məktəbə qəbul olanda sevinir, bu problemləri görəndə isə sevinci qursağında qalır. Çox güman ki, dərsdən sonra işləməli olacağam. İşləməsəm, çətin olacaq. Çünki ailəmin gəliri çox deyil. Tək qalmaq üçün evlər bahadır. Ev sahibi ilə birlikdə qalmağa isə daha çox qızları götürürlər. İki gündür gəzirəm. Amma hələ ki, cibimə uyğun normal bir ev tapa bilməmişik".

***

**Kirayə ev qiymətinin artma səbəblərinə gəlincə iSsə iqtisadçı ekspert Vüqar Bayramov bunu tələbin artması ilə əlaqələndirdi:** "Ümumiyyətlə, əmlak bazarı ilə müqayisədə ev, kirayə bazarında tamamilə fərqli bir tendensiya müşahidə edilir. Əgər əmlak bazarında qiymətlərin aşağı düşməsi müşahidə edilirsə, ev, kirayə bazarında qiymətlər artır. Aparılan araşdırmalardan görünür ki, daha çox metro stansiyaları və universitetlərə yaxın yerlərdə yerləşən mənzillərin qiymətində artımlar var. Bahalaşmaya əsas səbəb isə yeni dərs ilinin başlaması ilə bağlıdır. Yeni tədris ilində qəbul olan və rayonlardan gələn tələbələr özlərinə kirayə ev axtarırlar. Tələb artdığı üçün qiymətlər də artır. Bu baxımdan tədris ilində rayonlardan Bakıya gələn və burada təhsil alacaq tələbələrin kirayə ev axtarması bu evlərin qiymətlərinin bahalaşmasına əsas səbəbdir. İkinci səbəb isə təklifin artmamasıdır. Yəni tələb artır təklif isə stabildir. Təklif stabil olduğu üçün də qiymətlərin artımını sitimullaşdırır. Təklif artanda qiymətlər müəyyən qədər aşağı olur. Digər bir səbəb isə son illər əcnəbilərin mənzilə olan tələbatının artması ilə bağlıdır. Ölkəyə gələn əcnəbilərin bir qismi otellər baha olduğu üçün evlərdə qalmaq istəyirlər ki, bu da tələbi artırır və qiymət artımına səbəb olur. Sentyabrın sonlarına doğru ev, kirayə bazarında qiymətlər stabilləşəcək. Artıq oktyabrdan daha stabil qiymətlərin olacağı gözlənilir və bu stabil qiymətlər ilin sonuna kimi qalacaq".

**Ekspert 2015-ci ilin növbəti aylarında kirayə bazarında güclü qiymət artımlarının hələlik proqnozlaşdırılmadığını bildirdi.**

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# BDU tələbələrinin ən böyük dərdi - yataqxana...

## BDU-nun təsərrüfat işləri üzrə prorektor Nəbi Ramazanlı: "Hacıbala Abutalıbov bizim layihə ilə bağlı müraciətlərimizə cavab vermir"

**Yeni tədris ilinin başlamağına iki həftə vaxt qalıb. Tələbələr və onların valideynləri artıq ev kirayəsi axtarmağa başlayıblar. Araşdırmamız nəticəsində öyrəndik ki, ev kirayəsi axtaranlar arasında 18 mindən çox tələbəsi olan Bakı Dövlət Universitetinə (BDU) yeni qəbul olunanlar və ya burada təhsil alanlardır.**

*Bəs BDU-nun yeni tələbə şəhərciyi nə üçün inşa olunmur?*

BDU-nin ötən əsrin 60-cı illərində inşa olunmuş Mətbuat prospektində yerləşən tələbə şəhərciyi tamamilə yararsız vəziyyətdədir. Yataqxananın 3,4, 5 saylı binaları tam sökülüb. Məqsəd isə universitetin 2019-cu ildə keçiriləcək 100 illik yubileyinə qədər yeni yataqxananın inşa edilməsi olub. Lakin hələ də tikinti işlərinə başlanılmayıb.

Tikintinin gecikdirilməsi səbəbini öyrənmək üçün BDU-nun təsərrüfat işləri üzrə prorektor Nəbi Ramazanlı ilə əlaqə saxladıq. N.Ramazanlı musavat.com-a açıqlamasında bildirdi ki, onların tikinti ilə bağlı layihələri tam hazırdır: "Ancaq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bizim layihə ilə bağlı müraciətlərimizə cavab vermir. Yataqxananın inşasının gecikməsinə səbəb universitet rəhbərliyi deyil. Maliyyə Nazirliyi tərəfindən layihəyə vəsait ayrılması üçün icra hakimiyyəti tərəfindən inşaat sənədi verilməlidir. Lakin onlar bu sənədin verilməsini gecikdirirlər. Tikintinin nə zaman başlayacağı ilə bağlı Hacı - bala Abutalıbova dəfələrlə yazılı sorğu göndərmişik. Ancaq bizə icra hakimiyyəti tərəfindən nə rəsmi, nə də qeyri-rəsmi cavab verilməyib".

Məsələni dəqiqləşdirmək üçün şəhər meri Hacıbala Abutalıbovla əlaqə yaratmağa cəhd etdik. Lakin H.Abutalıbov zənglərimizə cavab vermədi.

Bakı Şəhər İcra Hakimiyyətinin Baş Maliyyə İdarəsinin İnzibati təsərrüfat sektorunun müdiri Məhərrəmov Məhəmməd isə musavat.com-a bildirdi ki, gecikməyə səbəb Maliyyə Nazirliyidir: "Bizə belə bir layihə daxil olmayıb".

Qeyd edək ki, BDU-nun tələbə şəhərciyi layihəsi üzrə 5 yeni yataqxana binasının tikilməsi nəzərdə tutulub. Təxminən 200 milyon manat dəyərində olacaq layihədə tələbələrin rahatlığını təmin edilməlidir.

Layihəyə görə, şəhərcikdə binaların hündürlüyü həmin ərazinin relyefindən asılı olaraq dəyişəcək. Yerin relyefi yüksəldikcə mərtəbələrin sayı azalacaq. Məsələn, Mətbuat prospekti tərəfdən olan ərazidə 16-17, daha yuxarı qalxdıqca yerin hündürlüyündən asılı olaraq 14, 13, 12 və s. mərtəbəli binalar inşa olunacaq. Ən son hündürlükdə tikiləcək bina 6 mərtəbəli olacaq.

Binalarda Avropa və dünyanın ən qabaqcıl universitetlərinin tələbə şəhərcikləri *(kampusları)* səviyyəsində müasir standartlara cavab verən bütün şərait yaradılacaq. Hər bir binada tələbələr üçün yeməkxana, kitabxana, İnternet şəbəkəsi, mağazalar və s. təşkil olunacaq. Burada bütün infrastruktur, o cümlədən ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təchizat məsələləri yüksək səviyyədə olacaq. Şəhərcikdə müasir universal multimedia taksofonları, genişzolaqlı İnternet xidmətləri tələbələrin ixtiyarına veriləcək. Təxminən 6 minə yaxın tələbənin yerləşə biləcəyi şəhərcikdə xarici tələbələr üçün xüsusi bina nəzərdə tutulub.





**Amma təəssüf ki, layihə hələ də sadəcə kağız üzərindədir.**

❑ **Əli RAİS**

# Sabiq bank işçisi prezidentdən kömək istəyir

## Sahib Ağayev: "Sizdən çox xahiş edirəm, mənə köməklik göstərin, borcumu ödəyim, məhkəmədə qanuni haqqımı alım"



**"Unibank" KB ASC-nin Nərimanov filialında çalışmış və həbs olunmuş Sahib Ağayevə Bakı Apelyasiya Məhkəməsində bəraət verilməsi və hazırda həmin bəraət qərarının ləğvinə hesablanan addımlar atılması haqda məlumat vermişdik. S.Ağayev prezidentə müraciət ünvanlayaraq ona qarşı haqsızlıqların aradan qaldırılmasını istəyib.**

S.Ağayev həyatını alt-üst olduğunu yazır: "Möhtərəm prezident! 14 avqust 2015-ci ildə işim üzrə Bakı Apelyasiya Məhkəməsində yeni məhkəmə baxışı təyin edildi. Hakim Qədim Babayevdir. Mənə bu iş üzrə bəraət verilib. Lakin mənə qarşı yenidən araşdırmalara başlanıb. Hakim Faiq Qasımovun sədrliyi ilə keçirilən əvvəlki məhkəmə prosesində bu işlə bağlı bütün hadisələr tam olaraq araşdırılıb və mənim dələduz olmadığım barədə yekun qərar verilib. Bəraət hökmü almışam. Buna baxmayaraq, indiki məhkəmə iclasında tam əksi, yəni mənim əməllərimi qanunsuz olaraq dələduzluq əməlinə uyğunlaşdırılmasına cəhd göstərilir. Mənim mülki qaydada bəzi şəxslərə borcum qalıb. Ailəmin 3 ildən çoxdur ki, çox ağır vəziyyətdə yaşamasına və 11 ay həbsdə olmağıma baxmayaraq, mənim maddi vəziyyətimin ağır olduğunu bilərəkdən, borclu olduğum məbləğin tam ödənilməsini tələb edirlər. Bunun qeyri-mümkün olduğunu bilə-bilə... Halbuki sizin sayənizdə günü-gündən inkişafda Azərbaycan Respublikasının heç bir qanununda müflis olmuş, maddi vəziyyəti ağırlaşmış borclu şəxsin məcburən borcunu tam ödəməsinə məcbur edilməsi barədə heç bir qərar yoxdur...

Əvvəlki müraciətimdə bildirdiyim kimi, ailəmiz çox ağır vəziyyətdədir, borc içində, kirayədə yaşayırıq. Ailəmizdə atamdan başqa çalışan yoxdur. Onun da gündəlik əmək haqqı 10 manatdır. Artıq 3 ilə yaxındır ki, məhkəmələrdə sürünürəm, mənim rahat nəfəs alaraq işləməyimə heç bir şərait yoxdur. Məhkəmələrin tələbi odur ki, borcumu tam ödəyim, baxmayaraq ki, borcumu ödəmək üçün dəyərli heç nəyim yoxdur. Məhkəmələr, dövlət ittihamçıları tərəfindən qanunsuz olaraq bu şərt irəli sürülür. Eyni zamanda, Avropa Konvensiyasının 4 saylı Protokolunun 1-ci maddəsinə əsasən, heç kəs hər hansı bir müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına görə azadlıqdan məhrum edilə bilməz. Borcumu tam ödəməyim üçün mən ya oğurluq, ya quldurluq etməliyəm. Yəni dələduz olmadığımı sübut etməyim üçün oğru və ya quldur adını almalıyam. Bunları etməyi bacarmıram və etmək niyyətim də yoxdur".

**S.Ağayev prezidentə müraciətində yazır:** "Mən artıq dəli olmaq, intihar ərəfəsindəyəm, hər günüm depressiya və stress içində keçir. Çünki təkəm, heç kimim yoxdur. Ümidimi ancaq göydə Allaha və yer üzündə isə Sizə bəsləmişəm. Sizdən çox xahiş edirəm, mənə köməklik göstərilsin, borc və ya kredit verilsin ki, dələduz adını üzərimdən götürərək, məhkəmədə qanuni haqqımı alım və 4 ilə yaxın əzab-əziyyətlərdən sonra rahat nəfəs alaraq, işə düzəlib borcumu ödəyim. Sizdən çox xahiş edirəm, harayıma gəlin, mənim yaşamaq həvəsim və gücüm ancaq Sizə olan inamımda və Sizdən gələcək köməkdədir".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT

Son səhifə

N 194 (6222) 3 sentyabr 2015



# Mənfi hisslər hansı orqanlara ziyan vurur?

**Mənfi hisslər, idarə edə bilmədiyimiz duyğular sadəcə zehnimizi yormur, eyni zamanda daxili orqanlara da ziyan vurur. Türkiyəli professor doktor Birsel Kavaklı mənfi hisslərin orqanlara zərərlərindən danışıb. Həkimin sözlərinə görə, əsəb stress hormonlarının artmasına səbəb olur. Bu da öz növbəsində qaraciyərə təsir edir.**

Birsel Kavaklının fikrincə, kədər hissi ən çox ağciyərlərə ziyan vurur: "Böyük bir itki ilə üzləşənlər sinədə ağrı hiss edirlər. Ona görə də, depressiyada olanlara və özünü çox kədərli, dərdli hiss edənlərə açıq havada gəzməyi məsləhət görürlər. Ağciyərlərə zərər dəyməməsi üçün açıq havaya çıxın və bir neçə dəfə dərindən nəfəs alın. Bu həm daxili orqanlara, həm də psixologiyanıza yaxşı təsir edəcək".

Daxili orqanlara pis təsir edən duyğulardan biri də qorxudur. Qorxmaq böyrəklərin büzüşməsinə səbəb olaraq onun fəaliyyətini zəiflədir. Zehni yorğunluğun dalağı sıradan çıxartması araşdırmalarla təsdiq edilən faktdır. Həddən artıq düşüncəli olmaq, çox fikirləşmək də dalaq üçün ən böyük təhlükədir. Həkim mənfi duyğuların ürəyə də təsir etdiyini vurğulayıb. O qeyd edib ki, ürəyə ən çox ziyan vuran hiss nifrətdir.

Nifrət hissi ürəyin ritmini pozur. Ürək daha sürətlə döyünür. Bu isə həmin orqanın yorulması ilə nəticələnir. Birsel Kavaklı mənfi hisslərin təsirindən qorunmağın tək yolunun müsbət düşüncələr və pozitiv enerji olduğunu qeyd edib.

# Son menyuya rekord qiymət

**Atlantik okeanının dibində kəşf edilməsinin 30-cu ildönümündə "Titanik"lə bağlı yeni bir açıqlama verilib. İlk səyahəti zamanı batan və gəmiyə aid bir neçə əşyanın saxlanıldığı "İnvaluable" adlı hərrac evi "Titanik"in batdığı günə aid yemək menyusunu hərraca çıxarıb. Qəzadan xilas olan vip sərnişinlərdən olan Abreham Loncoln Salomon saxladığı yemək menyusunu 70 min dollara hərraca çıxaracaq. Online olaraq gerçəkləşdirilən hərrac 30 sentyabrda gerçəkləşdiriləcək.**



Məlumat üçün bildirək ki, Vhite Star Line şirkətinə məxsus olan yüksək səviyyəli bir sərnişin gəmisi olan "Titanik" 15 aprel 1912-ci ildə ilk səyahəti zamanı bir aysberqə çırpılaraq batmışdı. Gəminin ümumi tutumu 3547 nəfər olsa da, gəmidəki kiçik xilasedicilərin ümumi tutumu 1514 nəfərlik imiş. Məhz bu səbəbdən qəza nəticəsində 1514 nəfər xilas edilməyi gözləyərkən donaraq həyatlarını itirmişdilər.

# 2,5 milyard dollar xoşbəxt etmədi

**İnternetdə ən çox yüklənən və lider oyun Minecraftın yaradıcı Markus Person bir neçə gün əvvəl tvitter sosial şəbəkəsində yazdığı statusda zənginliyin hər zaman xoşbəxtlik gətirmədiyini isbat edib. 36 yaşlı dollar milyarderi "İstədiyin hər şeyə sahib olmağın ən pis tərəfi, yeni şeylər üçün çapalamamaqdır" deyə, yazıb. Bu statusu paylaşdıqdan bir neçə saat sonra "İbizada şənlik təşkil etmişəm. Bir çox dostum və məşhur insanlarla birlikdə əylənirəm. Buna baxmayaraq, mən heç vaxt özümü bu qədər tək hiss etməmişdim" deyə, yazıb. 100 milyondan çox satın alınan oyunu Micrasofta satan Person "Çox gözəl bir qızla tanış olmuşdum, lakin həyat tərzimdən qorxdu. Yerimə normal birini sevdi" deyə də yazıb. Minecraft oyununu 2,5 milyard dollara satan Personun yazdığı statuslar sosial mediada hər kəsin diqqət mərkəzindədir.**





# 22 gün oyun oynadı öldü

**Rusiyada 22 gün yemək və tualet ehtiyaclarını qarşılamaq xaricində kompüter qarşısından qalxmayan 17 yaşlı gənc qız otağında ölü olaraq tapılıb. Rusiya polisindən verilən açıqlamalara görə, gənc qız kompüterin qarşısında əvvəlcə huşunu, ailəsi tərəfindən aparıldığı xəstəxanada həyatını itirib. Gənc qızın otağında aparılan araşdırmalar nəticəsində məlum olub ki, 8 avqustdan bəri qapını bağlayaraq otağında oyun oynayıb. Mütəxəssislər bu günə qədər gəncin 2 min saatdan çox kompüter oyunu oynadığını deyiblər.**




**QOÇ** - Təxminən saat 12-yə qədər gərgin situasiyalarla rastlaşacağınız gözlənilir. Ələlxüsus da həmkarlarınızla təmkinli davranmalısınız. Nahardan sonra isə xoş ovqat qazanacaqsınız.

**BUĞA** - İstəyib-istəməmənizdən asılı olmayaraq bu təqvimdə işgüzarlığınız artacaq. Bu baxımdan iş prinsipinizdə bir çox yeniliklər nəzərə çarpacaq. Cəhd göstərsəniz, pul da qazanacaqsınız.

**ƏKİZLƏR** - Sentyabra böyük ümidlər bəslədiyiniz bəllidir. Amma bu ümidlərə qovuşmaq üçün cəhdlər də etməlisiniz. Özünüzə aludə olmaqdansa müştərək işlərə daha çox yer ayırın. Ruhdan düşməyin.

**XƏRÇƏNG** - Adətən sentyabrın bu təqvimi sizin üçün həmişə böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən də qarşınıza çıxan hər bir şansdan yararlanmalısınız. Sirlərinizi hər kəsə açmayın.

**ŞİR** - Təzə ayın təəssüratlarını, payız əhval-ruhiyyəsini bir kənara qoyun. Çünki qarşınızda duran çoxsaylı vəzifələrin öhdəsindən gəlməyiniz lazımdır. Bu gün oturaq işlərdən uzaq olmalısınız.

**QIZ** - Hələ ki, sentyabrın gəlişi sizə xoş ovqat bəxş etməkdədir. Başqa cür də ola bilməz. Çünki indi "hakimiyyətdə" sizin bürcdür. Günorta yeni işlə bağlı sövdələşmə aparmaq olar.

**TƏRƏZİ** - Fəaliyyətinizdə müəyyən passivlik müşahidə olunacaq. Odur ki, gücünüz çatmayan işlərdən yapışmamalısınız. Nahardan sonra yaxın ünvanda yaşayan yaxınlarınıza baş çəkin.

**ƏQRƏB** - Məsləhətsiz hansısa addımı atmayın. Unutmayın ki, indi həyatınızın ən keşməkeşli dövrünü yaşamaqdasınız. Özünüzü itirməyin. Günün ikinci yarısında maraqlı hadisələr olacaq.

**OXATAN** - Hər şey çıxardığınız qərarlardan asılıdır. Bədxislətli şəxslərin atmacalarına vaxt itirməkdənsə, mötəbər adamlarla işbirliyi yaradın. Unutmayın ki, karyeranız yüksəliş ərəfəsindədir.

**OĞLAQ** - Daxili narahatçılığınız tədricən səngiməyə başlayacaq. Üzləşdiyiniz proseslər sevincinizə səbəb olacaq. Ulduzlar təvəqqe edir ki, ağıllı adamların məsləhətlərini qulaqardına vurmayasınız.

**SUTÖKƏN** - İş və fəaliyyətlə bağlı olduqca düşərli gündür. Odur ki, əsas diqqətinizi bu istiqamətə yönəltməlisiniz. Münasibətlərdə isə ehtiyatlı olun. Böyük dəyişikliklər astanasındasınız.

**BALIQLAR** - Qarşılıqlı münasibətlərdə yaranan anlaşılmazlıqları bir kənara qoyub aktiv fəaliyyətə başlayın. Hər hansı mübahisə və konflikt yalnız zərərinizə ola bilər. Uzaq yola çıxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən kiçik timsah tərbiyəçisi

**Avstraliyanın Viktoriya əyalətindəki Ballart parkının ən kiçik işçisi qeyri-adi cəsarətə sahib olduğu üçün çox məşhurlaşıb. Hələ 5 yaşı olan Çarli Parker uşaq parkdakı timsahlarla qorxmadan ilgilənir. "Ən kiçik timsah tərbiyəçisi" olaraq məşhurlaşan Parker ata-anasına aid parkdakı ilanlar və digər heyvanlardan qorxmur. Timsahların bütün ehtiyaclarını qarşılaya bilən Parkerin atasının sözlərinə görə, qorxusuzluğu və güclü xarakterinə görə heyvanlarla əlaqə yarada bilir.**



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300